RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 19 (9186) 28 YANVAR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanın suveren ərazisinə xain terror hücumu

## İran terrorunun növbəti hədəfi Azərbaycanın diplomatik korpusu oldu









**Vətən müharibəsindəki qələbəmizi, torpaqlarımızın azad olunmasını həzm edə bilməyən, Araz çayı sahilində uğursuz hərbi təlimlər keçirib Azərbaycanı təhdid edən İrandan bunu da gördük: dünən səhər saatlarında Tehrandakı səfirliyimiz terror hücumuna məruz qaldı. Hücum zamanı səfirliyimizin mühafizə xidmətinin rəhbəri baş leytenant Orxan Əsgərov qətlə yetirildi. İki nəfər mühafizə əməkdaşı isə yaralanıb.**

### Bu, Azərbaycan dövlətinə qarşı edilən silahlı basqındır

Səfirlik mənsub olduğu ölkənin suveren ərazisidir. Səfirliyin ərazisi, binası, o cümlədən diplomatik missiya həyata keçirən əməkdaşlar toxunulmazdırlar. Beynəlxalq qanunvericiliyə, 1961-ci il aprelin 18-də Vyanada Birləşmiş Millətlər Təşkilatının konfransında qəbul edilmiş Vyana Konvensiyasına əsasən, səfirlik yerləşdiyi dövlət tərəfindən qorunur. Azərbaycan bu konvensiyaya 1992-ci ildə qoşulub. Konvensiyanın 22-ci maddəsinə əsasən, diplomatik nümayəndəliklərin binaları toxunulmazdır. Nümayəndəlikləri hər cür hücumlardan və zərər vurulmasından qorumaq və nümayəndəliyin sakitliyinin istənilən formada pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün hər cür lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir.

Bu mənada dünən İranın paytaxtı Tehranda səfirliyimizə edilən xain hücum elə Azərbaycana qarşı terror törətmək deməkdir. Və ya bu hadisə elə Azərbaycan dövlətinə hücum etmək deməkdir. Çünki səfirlik ərazisi Azərbaycan dövlətinin suveren ərazisidir.

Vyana Konvensiyasına əsasən İran dövləti Azərbaycan səfirliyinin təhlükəsizliyini təmin etməyə borclu idi. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında da bildirilir ki, səfirliyin yerləşdiyi ölkə olaraq İran tərəfi Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasından irəli gələn səfirliyin mühafizəsinin və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müvafiq öhdəliyini yerinə yetirməli idi.

Amma görünən odur ki, İran səfirliyimizin mühafizəsini təmin etməyib və "kalaşnikov" avtomatı ilə silahlanmış şəxs səhər saatlarında bu terror hadisəsini törədib. Prezident İlham Əliyev tviterdə etdiyi paylaşımda Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayıb. Dövlət başçısının qeyd etdiyi kimi, diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir! Birinci vitse-prezident Mehriban Əliyeva da rəsmi instaqram səhifəsində ölkəmizin İrandakı səfirliyinə silahlı hücumla bağlı paylaşım edərək baş leytenant Orxan Əsgərovun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Xatırladaq ki, 2022-ci ilin avqustunda Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyi bir qrup radikal dini dəstənin hücumuna məruz qalmışdı. Radikal dəstə səfirliyin binasına daxil olaraq binanın eyvanında dini bayraqlar qaldırıb, radikal dini şüarlar səsləndirmişdilər.

Lakin Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən və səfirliklərimizin fəaliyyətə başlamasından sonra birinci dəfədir ki, Azərbaycanın səfirliyinə insan ölümü ilə nəticələnən hücum edilir.

### İranın terror çağırışlarının nəticəsi

Bu hadisə İranda baş verdi. O İran ki, mənəvi dəyərləri bölüşdüyünü iddia etdiyi Azərbaycana qarşı Vətən müharibəsindən sonra hərbi təhdidlərə başlayıb. Ermənistanın 30 ilə yaxın işğalı dövründə bir dəfə də olsun Azərbaycanla sərhəddə hərbi təlim keçirməyən İran Vətən müharibəsindən ötən qısa müddət ərzində Azərbaycanla yaxınlıqda düz 3 dəfə hərbi təlim keçirib. Sonuncu təlimdə isə hətta tanklarla Araz çayının keçilməsini məşq edib.

İranın dini nümayəndələri, generalları uzun müddətdir Zəngəzur dəhlizini özlərinin qırmızı cizgisi elan edərək və regionda sərhəd dəyişikliklərinə imkan verməyəcəklərini bildirərək, Azərbaycana qarşı çağırışlar edir, hədyanlar səsləndirirlər. O cümlədən İran İnqilab Keşikçiləri Korpusunun rəsmi sosial media kanalında da yayılmış bir videoçarx vasitəsilə Azərbaycan təhdid olunmuşdu. İranın televiziya və radioları isə az qala bütün fəaliyyətlərini Azərbaycanla mübarizə üzərində qurublar.

Bütün bunları edən müsəlman İranıdır. İslam qaydalarını dövlət siyasəti edən, amma bir dəfə də olsun Qarabağdakı məscidlərin Ermənistan tərəfindən dağıdılmasına etirazını bildirməyən İran. O İran ki, işğal dövründə məscidlərimizdə donuz saxlayan Ermənistanla bu gün ən yaxın tərəfdaş olub, ermənilərin təhlükəsizliyini özünün priorieti elan edib. O İran ki, İslam dinini, müsəlmanların inanclarını təhqir edənləri bir neçə gün əvvəl Tehranda məscidlərə aparıb.

Və dünən respublikamızın Tehrandakı səfirliyinə olunan terrorçu hücum adını islam respublikası qoyan İranın siyasi və dini dairələrinin, hərbçilərinin, kütləvi-informasiya vasitələrinin uzun müddətdir ki, onunla eyni dini inancları bölüşən Azərbaycan əleyhinə etdikləri çağırışların məntiqi nəticəsidir.

→ 4

**Azərbaycan Respublikası Milli Məclisi:**

## "Bütün məsuliyyət İranın üzərinə düşür"

**Xarici İşlər Nazirliyi:**

## "İrandan qətiyyətlə tələb edirik..."

**Dövlət Təhlükəsizliyi Xidməti:**

## "Terror aktı ilə bağlı cinayət işi başlanılıb"

**Yeni Azərbaycan Partiyası:**

## "İran Azərbaycan xalqından üzr istəməlidir"

**Dünya azərbaycanlıları:**

## "İran xüsusi xidmət orqanlarının təşkil etdiyi terror aktı"

## İran terrorunun qanlı səhifəsi

Dünən İran İslam Respublikasında diplomatların toxunulmazlığının, eləcə də diplomatik binaların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasının maddələri kobud şəkildə pozuldu. Ölkənin paytaxtında - Tehran şəhərində Azərbaycan səfirliyinə silahlı hücum edildi. Xain terror nəticəsində faciə baş verdi. Hücum zamanı səfirliyimizin mühafizə xidmətinin rəisi, baş leytenant Orxan Əsgərov şəhid edildi, daha iki nəfər yaralandı.

Azərbaycan Prezidenti İlham Əliyev Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınadı: "Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!"

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) bəyanatında diqqətə çatdırıldı ki, səfirliyimizin yerləşdiyi ölkə olaraq İran tərəfi Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasından irəli gələn səfirliyin mühafizəsinin və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müvafiq öhdəliyini yerinə yetirməli idi.

→ 4




## Qırmızı cizgini keçən İran bütün sərhədləri pozdu

Bunun başqa adı yoxdur. Bu, bizə qarşı düşmənçilikdir. İranın illərdir Ermənistanla birləşib Azərbaycana qarşı düşmənçilik etdiyi sirr deyil.

1990-cı illərdə Ermənistan ordusu ilə yanaşı, İran İnqilab Keşikçiləri Korpusunun əsgərlərinin və şəxsən general Qasım Süleymaninin Qarabağda, Əsgəran istiqamətində azərbaycanlılara qarşı döyüşməsi haqqında mətbuatda kifayət qədər məlumatlara, hətta bunu təsdiqləyən fotoşəkillərə də rast gəlmək mümkündür.

İranın ermənilərin işğal etdikləri ərazilərimizdə evlərimizi söküb daşıyaraq inşaat materialları bazarı açması faktını kimsə inkar edə bilməz. İranın uzun illərdir ki, Ermənistanla qardaşlıq münasibətləri sərgilədiyi göz önündədir.

44 günlük Vətən müharibəsi zamanı İran əsl simasını bir daha göstərdi. Ordumuzun Ermənistan üzərində qələbəsindən sonra İran qəbul olunmuş bütün qaydaları pozdu. Sərhədlərimizə ordu yığıb, "təlim" keçmək adı ilə bizə "güc" nümayiş etdirdi.

→ 4

**Sahibə QAFAROVA:**

## "Xain hücumun obyektiv araşdırılmasını tələb edirik"

**Adil ƏLİYEV:**

## "Əvvəlcədən planlaşdırılmış terror hadisəsi"

**Ziyafət ƏSGƏROV:**

## "Azərbaycan səfirliyinə hücum terror aktıdır"

**Türkiyə XİN:**

## "Tehrandakı səfirliyə edilən hücumu lənətləyirik"

**İsrail XİN:**

## "Hücum bizi sarsıdıb"

## İran səfiri Xarici İşlər Nazirliyinə çağırıldı

# Neft Fondunun aktivləri neftin qiymətinin düşdüyü zamanda da artır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də dünyanın aparıcı maliyyə şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətti qəbul edib.

AZƏRTAC xəbər verir ki, ölkəmizin əldə etdiyi nailiyyətlərin böyük maraq doğurduğunu vurğulayan Brüs Flətt Bakıda gördükləri inkişaf proseslərinin dərin təəssürat hissi yaratdığını dedi. Qonaq "Brookfield Asset Management" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndiyini vurğuladı və bildirdi ki, rəhbərlik etdiyi şirkət peşəkar səviyyədə fəaliyyət göstərən ARDNF ilə əlaqələrindən qürur duyur. O, həmçinin Azərbaycanın əldə etdiyi uğurların ölkəmizin böyük nailiyyəti olduğunu vurğulayaraq təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Neft Fondunun dünyanın aparıcı maliyyə institutlarından biri olan "Brookfield Asset Management" şirkəti ilə uğurlu əməkdaşlığından məmnunluğunu bildirərək əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğunu dedi. Azərbaycan Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini vurğulayan dövlətimizin başçısı fondun aktivlərinin hətta ən çətin dövrlərdə, o cümlədən pandemiya, maliyyə böhranları və neftin qiymətinin düşdüyü bir zamanda da artdığını qeyd etdi.

Görüşdə həmçinin Azərbaycanın "yaşıl enerji" potensialı və ölkəmizin regionda enerji habına çevrilməsi imkanları barədə fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, dünyanın ən böyük investisiya şirkətlərindən biri olan və əsas ofisi Kanadada yerləşən "Brookfield Asset Management" 1899-cu ildə təsis olunub və idarə etdiyi vəsaitlərin toplam dəyəri 750 milyard ABŞ dolları təşkil edir.

# Bu il İqtisadi Şuranın ilk iclası keçirilib

Yanvarın 27-də Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda İqtisadi Şuranın 2023-cü il üzrə Fəaliyyət Planı və maliyyə-bank sektoruna dair vergi məsələləri ətraflı müzakirə olunub.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun və Mərkəzi Bankın sədri Taleh Kazımovun məruzələri dinlənilib. İclasın yekununda müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfəri

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi yanvarın 27-də Azərbaycan Respublikasına səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Misirin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Misir Prezidenti Əbdülfəttah Əs-Sisini hava limanında Baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Əlcəzair Respublikasına səfər edəcək

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının 17-ci konfransında və təşkilatın komitə iclaslarında iştirak etmək üçün yanvarın 28-də Əlcəzair Xalq Demokratik Respublikasının Əlcəzair şəhərinə səfər edəcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Sədr müavini Fəzail İbrahimli, deputatlardan Sabir Rüstəmxanlı, Cavanşir Paşazadə, Mahir Abbaszadə, Jalə Əliyeva, Tahir Kərimli və digər rəsmi şəxslər daxildirlər.

Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının 17-ci konfransında çıxışı və tədbirdə iştirak edəcək nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri gözlənilir.

*"Azərbaycan"*

# ABŞ Dövlət Departamenti Azərbaycanın İrandakı səfirliyinə terror hücumunu kəskin qınayıb

ABŞ Dövlət Departamenti yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror hücumu ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Dövlət Departamentinin saytında yer alan bəyanatda Birləşmiş Ştatların səhər saatlarında Azərbaycanın Tehrandakı səfirliyinə edilən hücum şiddətlə pislənib.

"Biz Prezident Əliyevin bu qəbuledilməz zorakılığın təcili araşdırılması ilə bağlı çağırışına qoşuluruq. Diplomatlara və ya diplomatik nümayəndəliklərə qarşı istənilən hücum qəbuledilməzdir. Biz İran hökumətinə Cenevrə Konvensiyasına uyğun olaraq, İrandakı xarici diplomatları qorumaq məsuliyyətini xatırladırıq", - deyə bəyanatda qeyd olunub.

Dövlət Departamentinin bəyanatında həmçinin terror hücumu nəticəsində həlak olan Azərbaycan vətəndaşının ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verilib, yaralananlara tezliklə şəfa arzu olunub.

# BMT-nin 77-ci Baş Assambleyasının prezidenti Tehranda Azərbaycan səfirliyinə hücumu pisləyib

Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumu BMT-nin 77-ci Baş Assambleyasının prezidenti Çaba Koroşi tərəfindən də pislənib.

AZƏRTAC xəbər verir ki, terror aktı ilə əlaqədar Ç.Koroşinin adından yayılan bəyanatda Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən hücumun qınandığı bildirilib. Həmçinin səfirliyin həlak olmuş əməkdaşının ailəsinə və yaxınlarına başsağlığı ifadə olunub, yaralanan iki nəfərə isə tezliklə şəfa tapmaları arzulanıb.

Bəyanatda bu hücumun tezliklə araşdırılmasının vacibliyi də qeyd olunub.

# Türkiyə parlamentinin sədri terror aktını kəskin şəkildə pisləyib

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən qanlı terror aktını kəskin şəkildə pisləyib.

AZƏRTAC xəbər verir ki, TBMM-in sədri tviter səhifəsindəki paylaşımında törədilən alçaq hücumu qətiyyətlə qınadığını bildirib. Qeyd edib ki, o, Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova ilə telefonda danışaraq səfirlik əməkdaşının şəhid olmasına görə üzüntü keçirdiyini söyləyib, Azərbaycan xalqına başsağlığı verdiyini ifadə edib.

# Şimali Kipr Türk Respublikasının Prezidenti Azərbaycan xalqına başsağlığı verib

Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən terror hücumunu sərt şəkildə qınayıb.

AZƏRTAC xəbər verir ki, Ersin Tatar tviter hesabında etdiyi paylaşımda bu xain hücumu şiddətlə pisləyərək, Şimali Kipr Türk Respublikasının daim Azərbaycan dövlətinin yanında olduğunu vurğulayıb: "Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən silahlı hücumu qınayır, hücum nəticəsində həlak olan mühafizə rəisinə Allahdan rəhmət, yaralananlara tezliklə sağalmalarını arzulayıram. Kədəriniz kədərimizdir. Şimali Kipr Türk Respublikası daim Can Azərbaycan xalqının yanındadır. Başın sağ olsun, Azərbaycan".

# Belarus XİN: "Azərbaycanlı həmkarlarımıza dərin hüznlə başsağlığı verir, dəstəyimizi bildiririk"

Azərbaycanın Tehrandakı səfirliyinə diplomatik missiya üzvünün ölümü və daha iki işçinin yaralanması ilə nəticələnən silahlı hücumu qətiyyətlə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Belarus Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.

"Azərbaycanlı həmkarlarımıza dərin hüznlə başsağlığı verir, dəstəyimizi bildirir, yaralananların tezliklə sağalmasını arzulayırıq. Biz əminik ki, diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin əməkdaşlarına qarşı yönəlmiş bu cür hərəkətlərə haqq qazandırmaq olmaz", - deyə açıqlamada vurğulanıb.

# Azərbaycan və İran xarici işlər nazirləri arasında telefon danışığı olub



Yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı terror hücumu ilə əlaqədar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov bir əməkdaşın şəhid olması və iki əməkdaşın yaralanması ilə nəticələnin terror hücumunu qətiyyətlə pisləyib və şiddətlə qınayıb.

"Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası"na əsasən, səfirliyin binasının hər cür hücumlardan qorunmasının və səfirlik əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsinin İran tərəfinin vəzifəsi olduğu qarşı tərəfə bir daha xatırladılıb. Terror aktını törədən şəxsin İranın səlahiyyətli qurumları tərəfindən tezliklə məsuliyyətə cəlb olunması, terror aktının hərtərəfli araşdırılması, cinayətin təşkilində və törədilməsində əli olan digər iştirakçıların müəyyənləşdirilməsi və cəzalandırılması qarşı tərəfdən tələb edilib.

İran xarici işlər naziri Hüseyn Əmir Abdullahian həlak olan şəxsin ailəsinə, Azərbaycan rəhbərliyinə və xalqına başsağlığı diləklərini çatdırıb. O, İranın aidiyyəti səlahiyyətli qurumları tərəfindən dərhal hadisəyə reaksiya verildiyini, hazırda isə aidiyyəti hüquq-mühafizə orqanları tərəfindən məsələnin araşdırıldığı, səfirliyimizin və heyətinin təhlükəsizliyinin ən yüksək səviyyəyə qaldırıldığını diqqətə çatdırıb.

Həmçinin saxlanılan şəxsə qarşı silah daşımaq və diplomatın qətlə yetirilməsi üzrə cinayət işi açıldığı, onun yüksək cəzaya məruz qalacağı bildirilib. Səfirliyin yerləşdiyi ərazidən məsul olan İranın diplomatik polis qurumunun fəaliyyətinin araşdırıldığı qeyd edilib.

İranın xarici işlər naziri bu hadisə nəticəsində iki ölkə arasında münasibətlərin daha da gərginləşməyəcəyinə ümid etdiyini bildirib.

# Qırğızıstanın xarici işlər naziri terror hücumu ilə əlaqədar Ceyhun Bayramova zəng edib



Yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror hücumu ilə əlaqədar Qırğız Respublikasının xarici işlər naziri Ceenbek Kulubayev xarici işlər naziri Ceyhun Bayramova zəng edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, C.Kulubayev səfirliyimizin əməkdaşının bu xain terror aktı nəticəsində həlak olmasını dərin kədər hissi ilə qeyd edərək başsağlığı verib.

Beynəlxalq hüquq normalarına zidd şəkildə diplomatik xidmət orqanlarına və onların əməkdaşlarına qarşı törədilən belə xain hücumları qətiyyətlə pisləyən nazir C.Kulubayev Qırğız Respublikasının Azərbaycan ilə həmrəyliyini, səfirlik əməkdaşlarına qarşı belə terror aktlarının törədilməsinin qəbuledilməz olduğunu bildirib.

Nazir C.Bayramov başsağlığına və həmrəylik nümayişinə görə həmkarına təşəkkür edərək, səfirliyimizin əməkdaşının həyatını itirməsinə səbəb olan bu qanlı əməlin günahkarlarının müəyyənləşdirilərək layiqli cəza almasını təmin etmək üçün tərəfimizdən bütün lazımi tədbirlərin görüləcəyini əminliklə vurğulayıb.

# Özbəkistan XİN İranda səfirliyimizə qarşı törədilmiş terror hücumunu qəti şəkildə pisləyib

Özbəkistanın xarici işlər naziri vəzifəsini icra edən Baxtiyor Saidov ölkəmizin İrandakı səfirliyinə qarşı törədilmiş terror hücumu ilə əlaqədar xarici işlər naziri Ceyhun Bayramova zəng edib.



AZƏRTAC xəbər verir ki, Baxtiyor Saidov baş vermiş bu aktı qəti şəkildə pisləyib, hücum nəticəsində həyatını itirmiş mərhumun ailəsinə və qardaş Azərbaycan xalqına başsağlığı diləklərini çatdırıb və Azərbaycan tərəfi ilə həmrəyliyini bildirib.

Nazir Ceyhun Bayramov özbəkistanlı həmkarına minnətdarlığını bildirib, bu cinayəti törədənlərin və onun sifarişçilərinin ən qısa zamanda məsuliyyətə cəlb edilməsi və cəzalandırılması üçün Azərbaycan tərəfinin bütün mümkün vasitələrdən istifadə edəcəyini qeyd edib.

# Misir Prezidentinin Bakıda Azərbaycanın iş adamları ilə görüşü olub



Yanvarın 27-də Bakıda Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycanın iş adamları ilə görüşü olub.





AZƏRTAC xəbər verir ki, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Misir Prezidenti Əbdülfəttah Əs-Sisi görüşdə çıxış ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov əminliklə bildirib ki, bugünkü tədbir iki ölkə arasında əlaqələrin inkişafına töhfə verəcək. Nazir hazırda dünyada yaşanan iqtisadi böhran fonunda Azərbaycan iqtisadiyyatının 2022-ci ildə sabit inkişaf dinamikası nümayiş etdirdiyini, ümumi daxili məhsulun 4,6 faiz artdığını bildirib. Qeyd edilib ki, bu dövrdə qeyri-neft-qaz sahəsində artım 9,1 faiz təşkil edib, qeyri-neft ixracı 12 faizdən, ölkənin ümumi ixracı 73 faizdən çox artıb.

Azərbaycan ilə Misir arasında siyasi-iqtisadi əlaqələrin qarşılıqlı hörmət, dostluq və faydalı əməkdaşlıq əsasında inkişaf etdiyini vurğulayan M.Cabbarov dövlət başçılarının siyasi iradəsinin ikitərəfli əlaqələrin möhkəmlənməsində və genişlənməsində mühüm rol oynadığını bildirib.

Ötən il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu diqqətə çatdıran nazir deyib ki, Azərbaycanın Afrikada ilk səfirliyi 1994-cü ildə Misirdə açılıb. İki ölkə həmçinin beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq edir. Azərbaycanla Misir arasında iqtisadi əlaqələrin möhkəmləndiyini qeyd edən Mikayıl Cabbarov bildirib ki, hazırda ölkəmizdə Misir investisiyalı 51 şirkət fəaliyyət göstərir.

"Bununla belə, investisiya sahəsində əməkdaşlığın, qarşılıqlı ticarətin genişləndirilməsi üçün böyük potensial var. İnanırıq ki, Azərbaycan-Misir Hökumətlərarası Müştərək Komissiyasının fəaliyyəti, iş adamlarının iştirakı ilə təşkil olunan tədbirlər, Azərbaycan-Misir İşgüzar Şurasının yaradılması istiqamətində aparılan işlər bu potensialın reallaşdırılmasına töhfəsini verəcək", - deyə nazir vurğulayıb.

Mikayıl Cabbarov həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərindən, yaradılan biznes mühitindən, həyata keçirilən "yaşıl enerji" layihələrindən və dövlətin bu prosesə verdiyi dəstəkdən danışıb.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən Prezident Əbdülfəttah Əs-Sisi Misirin sadiq dostu, bu il 100 illik yubileyi qeyd ediləcək Ümummilli Lider Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük uğurlara nail olduğunu vurğulayıb. Prezident deyib ki, ölkələrimizin beynəlxalq ticarətdə əməkdaşlığı çox yüksək potensiala malikdir.

"Biz müxtəlif sahələrə investisiya yatırmağa böyük önəm veririk və Misir şirkətlərini Azərbaycanda müxtəlif layihələrə yatırım etməyə çağırırıq. Ölkələrimiz arasındakı potensial imkanları reallaşdırmağa çalışmalıyıq. Eyni zamanda Azərbaycan şirkətlərinin Misirdə əczaçılıq, energetika, metallurgiya və digər sahələrə investisiya yatırmaları üçün imkanlar yaratmalıyıq", - deyə Misir Prezidenti vurğulayıb.

Əbdülfəttah Əs-Sisi əlavə edib ki, ölkələrimizin müxtəlif sahələrdə mövcud olan potensialı və investisiya imkanları araşdırılmalı və reallaşdırılmalıdır.

Görüş müzakirələrlə davam edib.

## *Sahibə QAFAROVA:* "Xain hücumun obyektiv araşdırılmasını tələb edirik"

Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktı ilə əlaqədar öz feysbuk hesabında paylaşım edib.



Paylaşımda deyilir: "Yanvarın 27-də səhər saatlarında Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktını şiddətlə qınayırıq. Bu xain hücumun tezliklə və obyektiv şəkildə araşdırılmasını, günahkarların cəzalandırılmasını tələb edirik. Hücumun qarşısını alarkən şəhid olan səfirliyimizin əməkdaşına Allahdan rəhmət diləyir, yaxınlarına dərin hüznlə başsağlığı veririk!"

## Əvvəlcədən planlaşdırılmış terror hadisəsi

Azərbaycan Respublikasının İran İslam Respublikasının paytaxtı Tehranda yerləşən səfirliyinə silahlı terror hücumu olmuşdur. Nəticədə səfirliyin təhlükəsizlik xidmətinin rəhbəri Orxan Əsgərov qətlə yetirilmiş, iki nəfər digər əməkdaş isə yaralanmışdır. Allahdan şəhidimizə rəhmət diləyir, yaralılarımıza tezliklə sağalmağı arzulayıram.



Terror hadisəsinin baş verdiyi anın təhlükəsizlik kameralarına düşmüş kadrlarından göründüyü kimi, hücumu törədən fiziki cəhətdən cüssəli, davranış baxımından isə hazırlıqlı və soyuqqanlıdır. Bu isə hücumun təsadüfi və ya şəxsi xarakterli deyil, məhz əvvəlcədən planlaşdırılmış terror hadisəsi olduğu qənaətinə gəlməyə əsas verir. İranın hüquq-mühafizə orqanları hücum edən şəxsin iki uşağı ilə səfirliyə girdiyini bəyan etsə də, kadrlardan göründüyü kimi, orada heç bir uşaq yoxdur. Hadisə qurbanlarının sayı daha çox ola bilərdi. Yalnız səfirliyimizin təhlükəsizlik xidməti əməkdaşının sayıqlığı, fədakarlığı və qəhrəmanlığı sayəsində terror qurbanlarının sayı artmamışdır.

Vyana Konvensiyasına əsasən, İran İslam Respublikası səfirliyimizin təhlükəsizliyinə məsuliyyət daşıyır. Amma İran hökuməti bu vəzifəsini yerinə yetirməmiş və yaxud yerinə yetirmək istəməmişdir. Lakin İran heç olmasa, hadisənin istintaqını obyektiv surətdə araşdırmalı, terror əməlinin arxasında dayananların aşkar edilib cəzalandırılmasını təmin etməlidir. Biz bunu İrandan tələb edirik. Əks təqdirdə, İranın Ermənistanla daha bir ortaq xüsusiyyəti bir daha təsbit olunacaq və bu xüsusiyyət terrora dəstək vermək mahiyyətidir.

Çoxdandır ki, İrandakı terrorçulardan bizə qarşı təhdidlər eşidilirdi. Buna görə də İran hakimiyyətinin və müvafiq orqanların bu terror hadisəsinin baş verəcəyindən əvvəlcədən xəbərdar olmadıqlarına inanmaq çətindir. Amma hətta fərz etsək ki, onların bundan əvvəlcədən xəbəri olmayıb, o halda belə, İran hökumətinin, rəsmi dairələrinin və mətbuatının Azərbaycana qarşı apardığı geniş böhtan və düşmənçilik kampaniyasını, eləcə də nifrət çıxışlarını nəzərə aldıqda, İran bu hadisəyə görə ən azından mənəvi məsuliyyət və cavabdehlik daşıyır. İran nə beynəlxalq hüquqa, nə də etikaya sığmayan bu davranışlarına son qoymalı, dinc və normal qonşuluq münasibətlərinə qayıtmalıdır. Qonşu ölkəyə nifrət və düşmənçilik təbliğ etməkdənsə, öz daxili problemlərinə diqqətini yönəltməli və İranda tüğyan edən etirazlara daha həssas yanaşmalıdır.

***Adil ƏLİYEV,***
***Milli Məclisin Sədr müavini***

## *Ziyafət ƏSGƏROV:* "Azərbaycan səfirliyinə hücum terror aktıdır"

"Ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə hücum və bir nəfərin qətlə yetirilməsi heç bir çərçivəyə sığmır və beynəlxalq hüquqlara, konvensiyalara ziddir".



Bu fikirləri Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov komitənin yanvarın 27-də keçirilən iclasında deyib.

Komitə sədri bildirib ki, bu hadisə terror hadisəsi kimi qiymətləndirilməlidir. Onun sözlərinə görə, İran hökuməti Azərbaycan səfirliyinə hücuma məişət donu geyindirməyə çalışsa da, baş verən hadisə hər şeyi ortaya qoyur.

Ziyafət Əsgərov təəssüflə qeyd edib ki, baş verən hadisə yaxın qonşumuz İranın iç üzünü bir daha ortaya qoyur və "qardaş" ölkə olduqlarını təsdiqləyir.

## Son iki ildə Azərbaycanın diplomatik missiyasına edilmiş sayca 5-ci hücum

"Bu, son iki ildə Azərbaycanın diplomatik missiyasına edilmiş sayca 5-ci hücumdur. Bunlardan birincisi İrana bağlı dini qruplaşma tərəfindən Londonda, 2 hücum radikal ermənilər tərəfindən Parisdə və növbətisi yenə ermənilər tərəfindən Beyrutda törədilib".

AZƏRTAC xəbər verir ki, bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev deyib. Onun sözlərinə görə, Diplomatik əlaqələr haqqında 1961-ci ildə qəbul olunmuş Vyana Konvensiyasına əsasən ev sahibi ölkə xarici missiyaların təhlükəsizliyinə tam məsuliyyət daşıyır. İran rəsmiləri hücumun şəxsi səbəblər zəminində baş verdiyini iddia etsələr də, yenə də buna görə məsuliyyət daşıyırlar. Azərbaycana qarşı İranda əks təbliğat kampaniyasından və daha əvvəl Londona edilmiş hücumdan xəbərdar olan İran Azərbaycan səfirliyinin mühafizəsi üçün tədbirləri daha da gücləndirməli idi. Bu iranlılar və ermənilər tərəfindən Azərbaycan səfirliklərinin hücuma məruz qaldığı digər ölkələrə də aiddir.

# Bütün məsuliyyət İranın üzərinə düşür

### Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktına Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

Azərbaycan Respublikasının Milli Məclisi 2023-cü il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktını qətiyyətlə pisləyir.

Bu xain hücuma görə bütün məsuliyyət İran tərəfinin üzərinə düşür. 1961-ci il tarixli Vyana Konvensiyasına uyğun olaraq, yerləşmə ölkəsi diplomatik nümayəndəliklərin mühafizəsini, onların əməkdaşlarının təhlükəsizliyini təmin etməyə borcludur.

Təəssüflə qeyd edilməlidir ki, son dövrdə İran İslam Respublikasında ölkəmizə qarşı qarayaxma və hədə-qorxu kampaniyasına geniş rəvac verilmişdir. Bununla əlaqədar Azərbaycanın diplomatik nümayəndəliklərinə qarşı ehtimal oluna bilən hücumlara yol verməmək üçün qabaqlayıcı tədbirlərin görülməsi İran hüquq-mühafizə orqanlarının diqqət mərkəzində olmalı idi. Belə bir şəraitdə silahlı şəxsin xüsusi mühafizə rejimi tətbiq edilən səfirliyin inzibati binasına maneəsiz daxil ola bilməsi ciddi suallar doğurur.



Biz İran tərəfindən bu qəddar hücumun səbəbləri barədə verilən bəyanatları qeyri-qənaətbəxş hesab edirik. Bu terror aktının hərtərəfli və dərindən araşdırılmasını, bütün təqsirkarların və qanlı cinayət əməlinin arxasında dayananların müəyyən edilərək ən sərt şəkildə cəzalandırılmasını, eləcə də diplomatik nümayəndəliyə qarşı qəbuledilməz olan terror hücumuna gətirib çıxarmış halların aşkar olunmasını tələb edirik.

Hamıya məlumdur ki, Azərbaycan uzun illərdən bəri terror aktlarına məruz qalan ölkədir. Ancaq bu qanlı cinayət əməllərinin nəticələri nə qədər ağır olsa da, Azərbaycan dövlətini müstəqil daxili və xarici siyasət yolundan geri döndərə bilməmişdir və döndərə də bilməz. Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilmiş terror aktının sifarişçiləri, təhrikçiləri və icraçıları da əmin olsunlar ki, heç bir halda öz çirkin niyyətlərinə nail ola bilməyəcəklər.

Səfirliyin və səfirlik əməkdaşlarının mühafizəsini təmin edərkən həlak olmuş şəhidimizə Allahdan rəhmət diləyir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralıların tezliklə sağalmasını arzulayırıq.

***Azərbaycan Respublikasının Milli Məclisi***

# İrandan qətiyyətlə tələb edirik...

### Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı terror hücumu barədə XİN-in bəyanatı

Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı həyata keçirilmiş xain terror hücumunu şiddətlə qınayırıq.




Səfirliyin yerləşdiyi ölkə olaraq İran tərəfi Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasından irəli gələn səfirliyin mühafizəsinin və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı müvafiq öhdəliyini yerinə yetirməli idi.

İrandakı diplomatik missiyamıza qarşı əvvəllər də təhdid cəhdləri olub, bu kimi halların qarşısının alınması, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsi İran qarşısında davamlı qaldırılıb. Təəssüf ki, son qanlı terror hücumu bu istiqamətdə təkidli müraciətlərimizə lazımi həssaslıq göstərilməməsinin ağır fəsadlarını nümayiş etdirir.

Son zamanlar İranda ölkəmiz əleyhinə anti-Azərbaycan kampaniyasının aparılmasının diplomatik missiyamıza qarşı bu kimi hücumlara rəvac verdiyi qənaətindəyik.

İran tərəfindən sözügedən terror hücumunu törədənlərin, habelə bu qanlı əməlin sifarişçilərinin ən qısa müddətdə müəyyən edilərək ən sərt şəkildə cəzalandırılmasını qətiyyətlə tələb edirik.

Azərbaycan tərəfi günahkarların müəyyən edilərək layiqli cəza almasını təmin etmək üçün müvafiq beynəlxalq mexanizmlərin verdiyi bütün imkanlardan istifadə edəcəkdir.

Baş vermiş terror hücumu nəticəsində yaranmış vəziyyətdə səfirliyin əməkdaşlarının və ailə üzvlərinin təxliyyəsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

# Terror aktı ilə bağlı cinayət işi başlanılıb

### Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin məlumatı

27 yanvar 2023-cü il tarixdə Bakı vaxtı ilə səhər saat 08:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə silahlı hücum edilmişdir.

Hücumu edən şəxs "Kalaşnikov" markalı avtomat silahla mühafizə postunu yararaq səfirliyin mühafizə xidmətinin rəisi Əsgərov Orxan Rizvan oğlunu qətlə yetirməklə yanaşı, daha iki mühafizəçiyə xəsarət yetirmişdir. Bununla belə, səfirliyin əməkdaşları cinayətkarı tərksilah etməklə onun cinayət əməllərini dayandırmışlar.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.2, 120.2.1, 12.2, 120.2.4, 12.2, 120.2.11, 12.2, 29, 120.2.7, 12.3, 214.2.1, 12.3, 214.2.3 və 12.2, 228.2.1-ci maddələri ilə cinayət işi başlanılmışdır. Hazırda istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

İran İslam Respublikasının aidiyyəti qurumlarına aparılan araşdırmalarla bağlı zəruri məsələlərin həllinə dair müraciət edilmişdir.

Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş terrorçuluq əməlləri ilə bağlı bütün halların tam və hərtərəfli araşdırılması təmin ediləcək və bu barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

# "Bu hadisə İran xüsusi xidmət orqanlarının təşkil etdiyi terror aktıdır"

### Dünya azərbaycanlılarının ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilən terrorla bağlı bəyanatı

Biz, xarici ölkələrdə yaşayan azərbaycanlılar yanvarın 27-si Bakı vaxtı ilə səhər saat 8:30 radələrində Azərbaycanın İrandakı səfirliyinə silahlı hücum nəticəsində bir azərbaycanlının qətlə yetirilməsi, ikisinin isə yaralanmasından dərin kədər hissi keçirdiyimizi bildiririk. Dünya azərbaycanlıları baş vermis hadisəni İran xüsusi xidmət orqanlarının təşkil etdiyi terror aktı hesab edir, hər bir soydaşımız bu xain hücumu və qanlı cinayətləri törədənləri lənətləyir, diqqəti yayındırmaq üçün yayılan yalan məlumatlara inanmadığını bəyan edir. Baş vermis qanlı olay məntiqə və insanlığa sığmır.



Cənubi Azərbaycanda 40 milyon soydaşımızın yaşaması, onların davamlı olaraq hüquqlarının pozulması və İranda heç bir diplomatik nümayəndəliyin, eləcə də heç bir insanın toxunulmazlığına zəmanətin olmaması bizi hədsiz narahat edir.

Biz dünya ictimaiyyətinin diqqətini regiona yönəldir, insanlıq əleyhinə cinayətlərin törədilməsinə qarşı mübarizəyə çağırırıq.

Regionda sülh və sabitliyə əngəl törədən terror aktı barədə məlumatları BMT, Avropa İttifaqı, Avropa Şurası və onların qurumlarının, digər səlahiyyətli beynəlxalq və regional təşkilatların diqqətinə çatdıraraq, İran xüsusi xidmət orqanlarının belə ağır cinayət əməlləri törətməsinin qarşısını almaq üçün hüquqi-siyasi müstəvidə təcili tədbirlər görməyə çağırırıq.

Nəzərinizə çatdıraq ki, biz İran və Ermənistanın Azərbaycanın sərhədləri daxilində davamlı olaraq birgə qanunsuz əməllər törətdiyinin şahidiyik. Belə ki, son vaxtlar 27 İran vətəndaşı Laçın yolundan istifadə edərək qeyri-müəyyən məqsədlərlə Qarabağ ərazisində olan separatçıların yanına keçmiş, bu günə qədər Ermənistan və İran bu barədə heç bir açıqlama verməmişdir.

Biz törədilən terror aktı nəticəsində həlak olanların xatirəsini ehtiramla anır, davamlı olaraq Ermənistanın müxtəlif istiqamətli terror əməlləri ilə üz-üzə qalan Azərbaycana qarşı İran İslam Respublikasının da eyni mövqedən çıxış etməsini pisləyir, regionda sülh və insanlıq əleyhinə yönələn cinayətlərə görə cavabdeh şəxslərin ən qısa zamanda məsuliyyətə cəlb olunmasını tələb edir, beynəlxalq ictimaiyyətdən ədalətli mövqe gözləyirik.

# İran Azərbaycan xalqından üzr istəməlidir

### Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə silahlı hücumla əlaqədar bəyanatı

Yanvarın 27-də Bakı vaxtı ilə 8:30 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə edilmiş silahlı hücum bütün Azərbaycan ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyasının üzvlərinin də ciddi narahatlığına və böyük hiddətinə səbəb olmuşdur.

Dünyada tolerantlıq nümunəsi, multikulturalizm diyarı, sülh və sabitlik tərəfdarı kimi tanınan, dinc birgəyaşayışa, sivil inkişafa və ümumbəşəri dəyərlərin qorunmasına böyük önəm verən Azərbaycan Respublikası terrorun bütün forma və təzahürlərini rədd edərək qətiyyətlə pisləyir.

Dövlətimizi və xalqımızı hədəfə almış bu vandalizm aktının arxasında dayanan mənfur qüvvələr bilməlidirlər ki, insanlığa sığmayan, milli və dini dəyərlərə, sivil münasibətlərə və beynəlxalq hüquq normalarına zidd olan bu cür çirkin metodlarla Azərbaycana təsir və təzyiq göstərmək, onu hər hansı bir güzəştə məcbur etmək və müstəqil siyasətindən döndərmək mümkün deyil. 44 günlük Vətən müharibəsinin nəticələri və sonrakı proseslər göstərdi ki, Azərbaycan istənilən təhdidin qarşısını almağa, illərdir regionda kök salmış terrorizmin başını əzməyə və bütün strateji hədəflərini gerçəkləşdirməyə qadirdir. Regionda yeni reallıqlar yaradan, Cənubi Qafqazın lider dövləti kimi güc mərkəzinə çevrilən, dünyada etibarlı tərəfdaş kimi tanınan qalib Azərbaycanın qüdrətinin artmasından narahat olan qüvvələrin istənilən təxribat cəhdi iflasa məhkumdur və bundan sonra da heç bir nəticə verməyəcəkdir!

Yeni Azərbaycan Partiyası olaraq bu xain terror aktını qətiyyətlə pisləyir, şəhid olmuş Orxan Əsgərovun ailəsi və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralı qardaşlarımıza şəfa diləyir və İran İslam Respublikasından hadisənin hərtərəfli araşdırılaraq hüquqi qiymət verilməsini, qanlı təxribat törədən terrorçunun və onun arxasında dayanan sifarişçilərin layiqincə cəzalandırılmasını, nəhayət, Azərbaycan xalqından üzr istəyərək ölkəmizə qarşı uzun müddətdir ki, davam edən isterika və təbliğata son qoyulmasını, hadisənin əsl mahiyyəti ilə bağlı dəqiq və düzgün məlumat verilməsini tələb edirik!

# İranda planlı şəkildə anti-Azərbaycan kampaniyası aparılır

### İran səfiri Xarici İşlər Nazirliyinə çağırıldı

İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı terror hücumu ilə əlaqədar olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb.

Görüşdə Azərbaycanın Tehrandakı Səfirliyinə qarşı törədilmiş silahlı basqının, terror aktının şiddətlə qınanıldığı, diplomatik nümayəndəliklərə qarşı bu kimi hücumların qəbuledilməz olduğu və "Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyası"ndan irəli gələrək nümayəndəliyin binasını hər cür hücumlardan qorumaq və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsinin qəbul edən tərəfin vəzifəsi olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

Bu xüsusda, İranın səlahiyyətli qurumları tərəfindən terror aktını törədən şəxsin tezliklə məsuliyyətə cəlb olunması, terror aktının hərtərəfli araşdırılması, cinayətin təşkili və törədilməsində əli olan digər iştirakçıların müəyyənləşdirilməsi və cəzalandırılması qətiyyətlə tələb olunub.

Görüşdə habelə, son zamanlar İranda ölkəmiz əleyhinə planlı şəkildə anti-Azərbaycan kampaniyasının aparılmasından təəssüf hissi keçirildiyi, baş verənlərin onsuz da mürəkkəb olan münasibətləri daha da gərginləşdirdiyi diqqətə çatdırılıb.

İran səfiri Seyid Abbas Musəvi Azərbaycan səfirliyinə qarşı baş verən silahlı hadisəni kəskin şəkildə pisləyərək baş verənlərdən dərin kədər hissi keçirdiyini, səfirlik əməkdaşının ailəsinə, eləcə də Azərbaycan hökumətinə və xalqına dərin hüznlə başsağlığı verdiyini bildirib.

Səfir görüşdə habelə, İranın aidiyyəti səlahiyyətli qurumları tərəfindən dərhal hadisəyə reaksiya verildiyini, hazırda isə aidiyyəti hüquq-mühafizə orqanları tərəfindən məsələnin araşdırıldığı, ətraflı məlumatın istintaq prosesi başa çatdıqdan sonra ictimaiyyətə açıqlanacağını vurğulayıb.

# Azərbaycanın suveren ərazisinə xain terror hücumu

## İran terrorunun növbəti hədəfi Azərbaycanın diplomatik korpusu oldu

*Əvvəli 1-ci səh.*

"Son zamanlar İranda ölkəmiz əleyhinə anti-Azərbaycan kampaniyasının aparılmasının diplomatik missiyamıza qarşı bu kimi hücumlara rəvac verdiyi qənaətindəyik", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

### "Müsəlman" qiyafəsində islam düşməninə qucaq açanlar

Terroru dövlət siyasətinə çevirən, müxtəlif ölkələrdə öz maraqları üçün bu fəaliyyəti həyata keçirən İran hadisənin günahını başqalarında, başqa ünvanlarda axtarmağa cəhd göstərir. Hətta hadisə baş verdikdən sonra İran polisi cinayəti məişət hadisəsi kimi qələmə verməyə çalışdı, bunu törədənin hadisə yerinə uşaqla gəldiyini iddia etdi. Bu ölkənin Xarici İşlər Nazirliyi isə bəyan etdi ki, araşdırmaların nəticələri bu hərəkətin arxasında şəxsi motivlərin dayandığını göstərir.

Amma elə yayılan videokadrlardan da görünür ki, terrorçu idarə etdiyi avtomobillə təkbaşına gəlir. Binanın qarşısındakı İran polisi isə avtomatlı şəxsi dayandırmaq üçün cəhd belə göstərmir, postunu tərk etmir. Üstəlik, hücum edənin davranışları göstərir ki, onun hədəfi məhz Azərbaycan səfirliyi və Azərbaycan vətəndaşları olub. Səfirliyimizin digər mühafizəçisi qəhrəmancasına silahlı şəxsi zərərsizləşdirməsəydi, kim bilir, daha hansı faciələr baş verəcəkdi…

İran tərəfinin hadisənin motivləri barədə nə uydurmasından asılı olmayaraq səfirliyimizə edilən terrorçu hücum birmənalı şəkildə Azərbaycana qarşı İranda həyata keçirilən terror aktıdır. Bu hadisə İranın Azərbaycana qarşı apardığı düşmənçilik siyasətinin göstəricisidir. Eyni zamanda bu hadisə İranın müsəlman dünyasına hücumu, islam həmrəyliyinə vurduğu zərbədir.

Onilliklər boyu müxtəlif dövlətlərə və xalqlara qarşı düşmənçilik siyasəti yürüdən Tehran özünün qanlı cinayətlərinin sırasına birini də əlavə etdi. Bu dəfə isə hədəfi onunla eyni dini dəyərləri bölüşən Azərbaycan oldu. Qonşuluğunda güclü Azərbaycan dövlətinin olması ilə barışa bilməyən, müsəlman qiyafəsinə girib islam düşməninə qucaq açan, öz vətəndaşlarını belə terrora məruz qoyan bir rejimdən ancaq və ancaq belə riyakarlıqlar gözləmək olar.

Dünən İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və səfirliyimizə edilən silahlı hücumla bağlı dövlətimizin tələbləri onun diqqətinə çatdırılıb. Azərbaycan dövləti güclüdür və hansısa təhdidlərlə onu öz yolundan döndərmək mümkün deyil. Azərbaycan bütün təhdidlərin qarşısını aldığı, işğal altında olan torpaqlarını azad etdiyi kimi, regiondakı bütün prioritetlərini də qətiyyətlə təmin edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İran terrorunun qanlı səhifəsi

*Əvvəli 1-ci səh.*

Bəyanatda bildirildi: "İrandakı diplomatik missiyamıza qarşı əvvəllər də təhdid cəhdləri olub, bu kimi halların qarşısının alınması, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsi İran qarşısında davamlı qaldırılıb. Təəssüf ki, son qanlı terror hücumu bu istiqamətdə təkidli müraciətlərimizə lazımi həssaslıq göstərilməməsinin ağır fəsadlarını nümayiş etdirir".

Göründüyü kimi, dünən Tehranda törədilən qanlı terror Azərbaycan tərəfinin diplomatik missiyasına qarşı təhdid cəhdlərinin qarşısının alınması, təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsi barədə davamlı qaldırdığı məsələlərə, təkidli müraciətlərə İran İslam Respublikasının əhəmiyyət verməməsinin, həmçinin beynəlxalq hüquq və normalarını heçə saymasının nəticəsidir.

Əslində, İran insanların həyatına laqeydliyi və rəhimsizliyi yalnız başqa ölkə vətəndaşlarına münasibətində nümayiş etdirmir. Həmin ölkədə bu günlərdə də davam etməkdə olan etiraz aksiyalarının səbəbləri məhz hakimiyyətin İranı böyük bir həbsxanaya çevirməsi, vətəndaşlarına qarşı həyata keçirdiyi ağır cinayət əməlləridir.

Ötən ilin sentyabrında hicabı düzgün taxmadığı üçün İranda bir qızın həyatına son qoyuldu. Əxlaq polisi tərəfindən döyülən Məhsa Əmini aldığı zərbələr nəticəsində gənc yaşında gözlərini əbədi yumdu. Hakimiyyət hadisəni örtbasdır etməyə çalışdı. Belə ki, polis bölməyə aparılan qızın ürək problemindən vəfat etdiyini söylədi. Ancaq yaxınları onun tamamilə sağlam olduğunu bildirdilər.

Əslində, İranda hakimiyyətə qarşı narazılıqlar mövcud idi və getdikcə dərinləşirdi. 2022-ci ilin 16 sentyabrında iyirmi iki yaşlı Məhsa Əmininin qətlə yetirilməsi isə bardağı daşıran damla oldu. Ölkədə kəskin etiraz aksiyaları başladı. Polis gözyaşardıcı qazdan istifadə etməklə etirazçıların qarşısını ala, aksiyaları dayandıra bilmədi. Etirazçılar hakimiyyəti diktatorluqda ittiham etdilər, ölkənin ali liderlərinin posterlərini və İran bayraqlarını yandırdılar. Tehranda başlayan narazılıq aksiyaları qısa müddətdə bütün ölkəyə yayıldı. Növbəti aylarda da hakimiyyət təzyiq, təqib, edam və həbs cəzaları ilə iğtişaşların qarşısını ala bilmədi.

Üç aydır ki, İranda vəziyyət belədir. Və hakimiyyət xalqı qorxutmaq və sıxışdırmaq üçün hər cür qəddarlığa, insanlıqdan uzaq əməllərə əl atmaqdadır. Ölkənin müxtəlif ərazilərindən faciəli xəbərlər yayılır. Onlardan biri də Kermanşah şəhərinin Tağbostan bulvarında baş verdi. Hökumət qüvvələrinin açdığı atəş nəticəsində İranın oxatma üzrə yığmasının qadın üzvü, 2021-ci ildə oxatma üzrə Asiya turnirində ikinci yeri tutmuş Mehbanu Xoşnudi Kia bir gözündən məhrum oldu. Başqa bir məlumata görə, "Urmiya Məhəllələrinin Gəncləri" adlı qrup üzvlərinin 16-na qarşı cinayət işi açılıb. Onlara bir-birilərinə qarşı etiraf almaq üçün işgəncə verilib. Qeyd edilib ki, biri on beş yaşlı yeniyetmə qız olmaq şərti ilə həbs edilənlərin hamısı məktəblidir.

Qeyd edək ki, İran İnsan Haqları Təşkilatının son məlumatına görə, 2022-ci ilin dekabr ayının əvvəlinə kimi İranda 11-i qadın və 5-i uşaq olmaqla, 565 nəfəri edam edilib.

İran hökuməti söz azadlığına da qənim kəsilib. Bu günlərdə üç qadın jurnalist - Melika Haşimi, Səidə Şafii və Mehrnuş Zarii adlı jurnalistlər ölkənin paytaxtında tutulub. Rejim əleyhinə təbliğat aparmağa və milli təhlükəsizliyi təhdid etməkdə ittiham olunan jurnalistlərin Tehrandakı Evin adlı həbsxanada saxlanıldığı bildirilib. İran insan hüquqları fəallarının məlumatına görə, 2022-ci ilin sentyabr ayından başlayan etiraz aksiyaları zamanı 79 jurnalist həbs edilib.

Aksiyalarda iştirak etmək ittihamı ilə Tehran hakimiyyəti həbsləri davam etdirir. Vəziyyətin kəskinliyi ABŞ-ın Müharibə Araşdırmaları İnstitutunun yaydığı məlumatda da əksini tapıb. Məlumatda bildirilib: "İrandakı etiraz aksiyaları kuliminasiya nöqtəsinə çatıb". Qeyd olunub ki, lakin bu, etirazların başa çatacağı demək deyil: "Aksiya iştirakçıları hələ də mövcud rejimə qarşı qəzəblidirlər. Məşhəd Məhəllə Gəncləri Təşkilatı etirazçıları yanvarın 25-də rejimə qarşı mübarizəni davam etdirməyə çağırıb".

ABŞ analitikləri iqtisadi durumun pisləşməsinin ölkədəki aksiyaların əsas səbəblərindən olduğu qənaətindədirlər: "Neft-kimya və telekommunikasiya işçiləri və təqaüdçülər yanvarın 22-dən bütün İranda bir neçə kiçikmiqyaslı nümayişlər keçiriblər. Mövcud rejim elektrik enerjisinin kəsilməsi və təbii qaz çatışmazlığı məsələlərini indiyədək həll edə bilməyib. Bu, çox güman ki, rejim əleyhinə etirazları artıracaq. Qarşıdakı aylarda, hətta illərdə etiraz aksiyaları yenidən alovlana bilər".

Əməlləri ilə dünyanın qınağında olan İran hakimiyyəti dünən Tehranda baş verən terror hadisəsi ilə bir daha özünün əsl simasını göstərdi. Yayılan görüntülərdən də aydın oldu ki, terrorçu Azərbaycan səfirliyinin yerləşdiyi binaya daxil olmaqda heç bir çətinlik çəkməyib. Qabaqcadan planlayaraq, avtomat silahla asanlıqla içəri girə bilib və cinayət törədib. Baş vermiş bu faciəyə görə İran hökuməti məsuliyyət daşıyır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qırmızı cizgini keçən İran bütün sərhədləri pozdu




*Əvvəli 1-ci səh.*

İslam İnqilabı Keşikçiləri Korpusunun Bakını ala biləcəyi ilə bağlı təhdidləri səsləndi. Ermənistana açıq dəstək verib "İran sərhədlərin dəyişilməsinə yol verməyəcək" - dedilər. Guya sərhədləri dəyişirdik? İllərdir torpaqlarımızı işğal edib, məscidlərimizi, dini ocaqlarımızı təhqir edən ermənilərlə qardaşlıq edən müsəlman dövləti dolayısı ilə Azərbaycanı işğalçılıqda günahlandırıb erməni təbliğat maşınının gücünə güc verdi. İran televiziyaları, İran mətbuatı dövlətimizə qarşı iyrənc təbliğatını daha da gücləndirib, düşmənçiliyi açıq müstəviyə keçirdi. Molla rejimi azərbaycanlı uşaqları öz çirkin təbliğatlarına alət etməkdən belə çəkinmədi. Yenə "qonşudur", - deyib susduq. Ermənilərə silah satıb onları üstümüzə qaldıran İran heç nədən çəkinmədən Ermənistanla bir medalın iki üzü olduğunu nümayiş etdirmək üçün Tehranla Yerevanın qardaşlığını rəsmiləşdirdi, səsimizi çıxarmadıq. Zatən qardaş olduqları göz önündəydi. İran bütün qaydaları pozduğunu açıqca nümayiş etdirirdi. Buna qırmızı cizgi də deyirlər.

Bu gün İran artıq yalnız qırmızı cizgini yox, bütün sərhədləri pozdu. Azərbaycanın İrandakı səfirliyinə xaincəsinə silahlı basqın oldu. Terror nəticəsində səfirliyin və səfirlik əməkdaşlarının mühafizəsini təmin edən baş leytenant Əsgərov Orxan Rizvan oğlu şəhid oldu, mühafizə xidmətinin iki əməkdaşı isə yaralandı. Qeyd edək ki, dövlətimizin başçısı baş verən hadisəni terror adlandırdı.

Bu hadisə bir daha sübut edir ki, İran nəinki terroru dəstəkləyən dövlətdir, hətta beynəlxalq qanunlarla öz üzərinə götürdüyü öhdəlikləri nümayişkaranə pozan bir ölkədir. Hər gün adi haqqını, hüququnu tələb edən insanları edam edən İran üçün nə beynəlxalq hüquq var, nə də insanlıq qanunu. İran bütün dünya dövlətlərinin qəbul etdiyi qanunları heçə saymaqdan sanki ləzzət alır. Bu, terrorçu xislətidir.

Qeyd edək ki, Diplomatik Əlaqələr Haqqında Konvensiya 18 aprel 1961-ci ildə Vyana Konqresində qəbul olunub. Azərbaycan 1992-ci il 21 iyul tarixdə Vyana Konvensiyasına qoşulub. Konvensiyanın maddələrinə əsasən, konsulluq münasibətlərinin qurulması qarşılıqlı razılıq əsasında həyata keçirilir və diplomatların oturduğu səfirlik binaları toxunulmazdır. Həmçinin konvensiyaya görə, diplomatik nümayəndəliklərin başçılarının razılığı olmadan konsulluq binalarına heç kim daxil ola bilməz. Konvensiyaya əsasən, hər bir dövlətin üzərinə ərazisində olan konsulluq binalarına edilə biləcək hücumlardan qorumaq, konsulluq qurumunun sakitliyinin istənilən şəkildə pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün bütün lazımi tədbirləri görmək öhdəliyi düşür.

İran dövləti öz üzərinə düşən işi layiqincə görmədiyi bir yana, heç çəkinmədən, utanıb qızarmadan məsuliyyətdən yayınmaq yolunu tutdu. Tehranın polis rəisi Sərdar Hüseyn Rəhimi Azərbaycan səfirliyinə silahlı hücumun şəxsi zəmində baş verdiyi barədə uydurma məlumat yayaraq məsuliyyətdən boyun qaçırmaq niyyətində olduqlarını nümayiş etdirdi.

Əslinə qalsa, üzü-astarı olmayan bu açıqlamanı yaymaqla Tehran bir daha terrorçu dövlət olduğunu isbatlamış oldu. Bu gün İranda rejimin əsas müdafiəçisi rolunda çıxış edən İran İnqilab Keşikçiləri Korpusu (SEPAH) dünyanın bir sıra - ABŞ, Bəhreyn, İsrail, Səudiyyə Ərəbistanı tərəfindən terrorçu təşkilat elan edilib. Eyni zamanda bir sıra Avropa dövlətləri, o cümlədən İngiltərə də İslam İnqilabı Keşikçiləri Korpusunu terroçu təşkilat kimi tanımağa hazırlaşır.

Rejimi müdafiə məqsədilə yaradılan SEPAH xarici dövlətlərin ərazisində hərbi kəşfiyyat xarakterli əməliyyatlar həyata keçirir, ölkə xaricində müəyyən terror təxribatları sifariş edir. Ermənistan-Azərbaycan münaqişəsinin ilk dövrlərində də SEPAH-ın bilavasitə Ermənistana hərbi-siyasi yardımlar etməsi barədə kifayət qədər məlumatlar var idi.

Bu gün İranda sosial narazılıqlar fonunda etirazlar davam etməkdədir. İnsanlar sosial vəziyyətlərinin yaxşılaşması və hüquqlarının təminatı uğrunda mübarizə aparırlar. SEPAH rejimi qorumaq əhalini itaətdə saxlamaq, etirazçıların gözünü qorxutmaq üçün bütün ağlasığmaz üsullardan istifadə edir.

Burada bir məsələni də qeyd etməyi vacib bildik. 2022-ci il avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyi bir qrup radikal dini dəstənin hücumuna məruz qalmışdı. Radikal dəstə səfirliyin binasına daxil olaraq binanın eyvanında dini bayraqlar qaldırıb, radikal dini şüarlar səsləndirmişdilər. Şübhəsiz ki, həmin hadisələr də ciddi araşdırılsa, daşın altından İranın, SEPAH-ın barmağı çıxacaq. Dünən İranda baş verən terror hadisəsi o zaman Şimali İrlandiyadakı hadisələrin məntiqi nəticəsidir desək, səhv etmərik. O zaman da, dünən də İranda Azərbaycan səfirliyində törədilən terror aktının bir adı var: məqsəd Azərbaycan dövlətinə gözdağı vermək olub. Amma "sirkə nə qədər tünd olsa, öz qabını çatladar", - deyiblər. Molla rejiminin ideoloqlarının dövlətimizə qarşı yürütdüyü bu avantürist siyasətinin son olaraq öz başında çatlayacağına heç şübhə yoxdur. Rejimin ideoloqlarının Azərbaycanı qanla, silahla təhdid etmələri olduqca yanlış siyasətdir. Molla rejimi anlamalıdır ki, Azərbaycan dövlətinin İranda 40 milyonluq ordusu var. Biz lazım gəldiyi məqamda bütövlükdə vahid bir ordu olan xalqıq.

Bu gün cənubda yaşayan qardaşlarımız ayaqdadırlar. İranda etiraz edən soydaşlarımız küçələrə Azərbaycan bayrağı ilə çıxırlar. Səfirlik ərazisi təmsil olunduğu ölkənin suveren ərazisi hesab edilir. Ərazilərimizə silahlı basqın edənlər, bu işə rəvac verənlər bilməlidirlər ki, bunun cavabını verəcəklər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Hücumlardan qorumaq ev sahibi olan dövlətin vəzifəsidir

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə edilən hücumla bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda ombudsman ölkəmizin İrandakı səfirliyinə qarşı törədilən terror aktını qətiyyətlə qınayıb. Qeyd olunub ki, alçaq hücum nəticəsində öz xidməti fəaliyyətini yerinə yetirən diplomatik nümayəndəliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov həlak olub, səfirliyin iki nəfər əməkdaşı isə xəsarət alıb.

"Baş verən hadisə, ilk növbədə, "Diplomatik əlaqələr haqqında" 1961-ci il tarixli Vyana Konvensiyasının müddəalarının kobud şəkildə pozulmasıdır. Belə ki, Vyana Konvensiyasının 22-ci maddəsinə əsasən, nümayəndəlik binaları toxunulmazdır, nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq, nümayəndəliyin normal fəaliyyətinin təmini üçün lazımi tədbirlər görmək ev sahibi olan dövlətin vəzifəsidir. Baş verən cinayət hadisəsi həm də "Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında" 1973-cü il tarixli konvensiyasının tələblərinin kobud pozuntusudur. Bəşəriyyət üçün ən təhlükəli təhdidlərdən biri olan terrorizm cinayətinin qurbanı olan və öz xidməti vəzifəsini icra edərkən həlak olan səfirlik əməkdaşına Allahdan rəhmət, ailəsinə səbir, yaralananlara şəfa diləyirəm", - deyə bəyanatda qeyd olunur.

Ombudsman bildirib ki, qanlı terror aktı İran hökuməti tərəfindən tezliklə araşdırılmalı, cinayətkarlar cəzalandırılmalı, beynəlxalq sənədlərə əsasən müəyyən edilmiş öhdəliklər yerinə yetirilməlidir.

*Türkiyə XİN:*

## "Tehrandakı səfirliyə edilən hücumu lənətləyirik"

"Azərbaycanın Tehrandakı səfirliyinə qarşı bu gün səhər edilən hücumu lənətləyirik. Bu hücumda həyatını itirən səfirlik əməkdaşına Allahdan rəhmət, yaralılara şəfa diləyirik".

Bu sözlər Türkiyə Xarici İşlər Nazirliyinin qanlı hadisə ilə bağlı açıqlamasında əksini tapıb.

Diqqətə çatdırılır ki, keçmişdə oxşar hücumlara məruz qalan Türkiyə Azərbaycan xalqının acısına dərindən şərik olur. Bu alçaq hücumda məsuliyyət daşıyanların dərhal tapılaraq ədalətə təslim edilməsi və belə halların təkrar olunmaması üçün zəruri bütün tədbirlərin alınması mühüm əhəmiyyət daşıyır. Qardaş Azərbaycan xalqı əsla tək deyildir. Azərbaycana dəstəyimiz hər zaman olduğu kimi bundan sonra da fasiləsiz olaraq davam edəcəkdir.

*Mövlud ÇAVUŞOĞLU:*

## "Azərbaycan heç zaman tək deyil"

"Can Azərbaycanın Tehrandakı səfirliyinə edilən xain hücumu pisləyirəm". Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu özünün tviter hesabında yazıb.

Çavuşoğlu qeyd edib: "Şəhid qardaşımıza Allahdan rəhmət, yaxınlarına və Azərbaycan xalqına başsağlığı, yaralananlara tezliklə şəfa tapmalarını diləyirəm. Azərbaycan heç zaman tək deyil. Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir".

*İsrail XİN:*

## "Səfirliyə qarşı hücum bizi sarsıdıb"

"Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş və təhlükəsizlik rəisinin qətlə yetirilməsi ilə nəticələnən xain hücum bizi sarsıdıb və kədərləndirib".

Bunu İsrail XİN-in rəsmi sözçüsü Lior Haiat öz tviter hesabında etdiyi paylaşımda qeyd edib.

"Azərbaycan xalqına və hökumətinə, eləcə də həlak olanın ailəsinə dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını diləyirik", - deyə paylaşımda deyilir.

*Ukrayna XİN:*

## "Azərbaycanın Tehrandakı səfirliyinə hücumu qətiyyətlə pisləyirik"

Ukrayna Azərbaycanın Tehrandakı səfirliyinə hücumu qətiyyətlə pisləyib.

AZƏRTAC xəbər verir ki, bu barədə Ukrayna Xarici İşlər Nazirliyinin sözçüsü Oleq Nikolenko bildirib.

"Ukrayna Azərbaycanın Tehrandakı səfirliyinə bugünkü hücumu qətiyyətlə pisləyir. Hücum nəticəsində səfirliyin təhlükəsizlik xidmətinin əməkdaşları arasında həlak olan və yaralananlar var. Mərhumun yaxınlarına başsağlığı verir, yaralananlara tezliklə şəfa diləyirik", - deyə Nikolenko qeyd edib.

## Rusiya XİN səfirliyə hücumla bağlı başsağlığı verib

Nazirlik diplomatik nümayəndəliklərin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini bildirib.

"Azərbaycan tərəfinə dərin hüznlə başsağlığı veririk. Daxil olan məlumata əsasən, bu gün səhər avtomatla silahlanmış şəxs diplomatik missiyanın binasına daxil olaraq atəş açıb. Nəticədə Azərbaycan diplomatik missiyasının bir əməkdaşı həlak olub, onun iki həmkarı xəsarət alıb. Hücum edən şəxs Tehran polisi tərəfindən saxlanılıb, araşdırma aparılır", - deyə məlumatda bildirilir.

Moskva ümid edir ki, bütün günahkarlar məsuliyyətə cəlb olunacaqlar. Rusiya XİN-in məlumatında qeyd olunur ki, "Baş verənlər 1961-ci il 18 aprel tarixli Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasına uyğun olaraq dövlət hakimiyyət orqanları tərəfindən diplomatik nümayəndəliklərin təhlükəsiz fəaliyyətinin təmin edilməsinin vacibliyini bir daha təsdiqləyir".

*Mariya ZAXAROVA:*

## "Azərbaycanın İrandakı səfirliyinə hücum bizi şoka saldı"

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova ölkəmizin İrandakı səfirliyinə hücum nəticəsində mühafizəçinin qətlə yetirilməsi ilə bağlı azərbaycanlı həmkarlarına başsağlığı verib.

Diplomat bu barədə teleqram kanalında yazıb.

O qeyd edib: "Azərbaycan səfirliyinə növbəti hücum və mühafizə əməkdaşının qətlə yetirilməsi bizi şoka saldı. Azərbaycanlı həmkarlarımıza başsağlığı verir və onlara dəstəyimizi ifadə edirik".

M.Zaxarova əlavə edib ki, Rusiya XİN bir qədər sonra hadisə ilə bağlı ətraflı şərh verəcək.

*Peter MİXALKO:*

## "Tehrandakı səfirliyə silahlı basqın məni dəhşətə gətirdi"

"Azərbaycanın Tehrandakı səfirliyinə silahlı basqın nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərlər məni dəhşətə gətirdi".

Bu barədə Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Peter Mixalko tviterdə yazıb.

"Diplomatik nümayəndəliklərə hücumlar qəbuledilməzdir. Həlak olanın ailəsinə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram", - deyə o bildirib.

# Terror aktı tezliklə araşdırılmalıdır



Yanvarın 27-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Ziyafət Əsgərov əvvəlcə bildirib ki, Azərbaycanın İrandakı səfirliyinə qarşı edilən terror aktı ilə bağlı məlumat hamımızı sarsıdıb. Komitə sədri terror aktını kəskin surətdə pisləyib və qeyd edib ki, beynəlxalq hüquqa uyğun olaraq Tehrandakı səfirliyimizin təhlükəsizliyini İran qorumalıdır. Lakin o, bunu etməyib. Bu terror aktına görə İran məsuliyyət daşıyır.

Komitə sədri Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktında həlak olan səfirlik əməkdaşının ailəsinə və yaxınlarına səbir diləyib, hadisədə yaralananların tezliklə sağalmalarını arzulayıb.

Deputatlar Hikmət Məmmədov, Aydın Mirzəzadə, Nizami Səfərov, Arzu Nağıyev, Aqil Abbas, Elman Məmmədov bu terror hücumunu qəbuledilməz adlandırıblar və qətiyyətlə pisləyiblər. Onlar bu terror aktının tezliklə araşdırılmasını tələb ediblər.

İclasda gündəlikdəki "Fövqəladə vəziyyət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəsi edilib. Layihə barədə məlumat verən komitə sədri diqqətə çatdırıb ki, təklif edilən dəyişikliklərə əsasən "Fövqəladə vəziyyət haqqında" qanuna sosial xarakterli fövqəladə mühit və sosial xarakterli fövqəladə mühit rejiminə dair yeni normalar daxil edilir. Dəyişikliklərin əsas məqsədi ondan ibarətdir ki, sosial xarakterli fövqəladə mühitin yaranması fövqəladə vəziyyətin tətbiqi üçün əsas hesab edilmir. Belə ki, əhalinin həyat fəaliyyəti şəraitinin pozulmasına, o cümlədən insanların ölümünə, əhalinin sağlamlığına, əmlaka və ya ətraf mühitə əhəmiyyətli dərəcədə zərərin vurulmasına səbəb olan və ya səbəb ola bilən fövqəladə halların nəticəsində yaranan mühit sosial xarakterli fövqəladə mühit hesab olunur. Bu mühitin rejimi müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktı ilə Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində tətbiq edilir. Sosial xarakterli fövqəladə mühit rejiminin tətbiqi zamanı insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsi məhdudlaşdırılmır.

Sosial xarakterli fövqəladə mühit rejimi tətbiq edildikdə sosial xarakterli fövqəladə mühitin aradan qaldırılması üçün zəruri olan tədbirlər həyata keçirilir, bu məqsədlə aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət komissiya yaradılır.

Qanun layihəsinin müzakirəsində Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini Hikmət Məmmədov, komitə üzvü Aydın Mirzəzadə çıxış edərək fikirlərini bildirib, rəy və təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra "Fövqəladə vəziyyət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda deputatlar Bəxtiyar Sadıqov, Əminə Ağazadə, Elşad Mirbəşiroğlu və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Dünya Bankının nümayəndələri Milli Məclisdə olublar



Yanvarın 27-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Vüqar Bayramov, Məzahir Əfəndiyev və Aydın Hüseynov Dünya Bankının İdarəetmə üzrə Baş Mütəxəssis və Tapşırıq qrupunun rəhbəri Andzs Ubelisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin deputatı Vüqar Bayramov qonaqları salamlayaraq Dünya Bankı ilə əlaqələrin və Orta Müddətli Xərclər Çərçivəsi üzrə Potensial Quruculuğu Proqramı (OMXÇ PQP) çərçivəsində əməkdaşlığın əhəmiyyətindən danışıb. O qeyd edib ki, Milli Məclis və təmsil etdiyi komitə həm qanunvericiliyin təkmilləşdirilməsi, həm də büdcə siyasəti sahəsində şəffaflığın təmin edilməsi və yeni alətlərdən istifadə olunması istiqamətində intensiv fəaliyyət həyata keçirir. O, dövlət xərcləmələrinin səmərəli şəkildə həyata keçirilməsinin, buna Milli Məclisin nəzarətinin gücləndirilməsinin, bununla bağlı proqramların monitorinqinin və mövcud qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyindən bəhs edib. Deputat bu istiqamətdə hökumət nümayəndələri və aidiyyəti beynəlxalq qurumlarla davamlı əməkdaşlığın olduğunu deyib.

Dünya Bankının İdarəetmə üzrə Baş Mütəxəssis və Tapşırıq qrupunun rəhbəri Andzs Ubelis başçılıq etdiyi nümayəndə heyəti adından bu görüşə görə təşəkkürünü ifadə edib. O, rəhbərlik etdiyi qrupda ortamüddətli büdcənin hazırlanması ilə məşğul olan mütəxəssislərin təmsil olunduğunu söyləyib. Qonaq komitə üzvləri ilə əvvəlki görüşləri xatırladaraq, bu sahədə faydalı fikir mübadiləsinin aparıldığını deyib.

Andzs Ubelis əməkdaşlığın istiqamətləri barədə fikirlərini açıqlayaraq, təmsil etdiyi missiyanın məqsədlərini diqqətə çatdırıb. Bildirib ki, onun rəhbərlik etdiyi qrup öz fəaliyyətini bir neçə istiqamətdə həyata keçirməyi planlaşdırır. O, ortamüddətli xərclər çərçivəsi üzrə potensial quruculuğu proqramının xüsusiyyətləri barədə məlumat verərək, diqqətə çatdırıb ki, bu istiqamətdə büdcə sahəsində parlamentin nəzarəti ilə bağlı seminarların keçirilməsi, bununla əlaqədar mütəxəssisin dəvət edilməsi, ortamüddətli xərclərə əsaslanan büdcənin formalaşdırılması sahəsində təlimlərin aparılması, bu sahəni tənzimləyən qanunvericiliyin araşdırılması və müvafiq tövsiyələrin verilməsi nəzərdə tutulub.

Görüşdə deputatlar Məzahir Əfəndiyev və Aydın Hüseynov çıxış edərək Dünya Bankı ilə əməkdaşlığın inkişafı ilə bağlı fikirlərini açıqlayıblar, missiyanın həyata keçirdiyi proqramın əhəmiyyətindən bəhs ediblər. Diqqətə çatdırılıb ki, 2023-cü il ölkəmiz üçün əlamətdar bir ildir. Ölkə Prezidentinin müvafiq sərəncamına əsasən, bu il "Heydər Əliyev İli" kimi qeyd olunur. Bunu nəzərə alaraq missiya tərəfindən həyata keçirilən proqram çərçivəsində "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" mövzusunda konfransın keçirilməsi məqsədəmüvafiqdir.

Dünya Bankının nümayəndə heyətinin üzvləri Bruno Laparte, Mark Robinson, Marko Cangiano çıxış edərək təmsil etdikləri missiyanın məqsədləri, həyata keçirdikləri proqramın istiqamətləri barədə məlumat veriblər. Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluqda geniş kollegiya iclası keçirilib

Yanvarın 27-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi Aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı Şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2022-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, əvvəlcə Baş Prokurorluğun rəhbərliyi Ulu Öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə gül dəstələri qoyub, əbədiyaşar liderin əziz xatirəsini dərin ehtiramla yad edib.

Kollegiya iclasında Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib, qazilərə şəfa dilənib.

İclasda giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev qeyd edib ki, Azərbaycan xalqının və dövlətinin taleyində müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin siyasi varisi, müzəffər sərkərdə, yeni dövrün yeni lideri Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli dövlət, sosialyönümlü iqtisadiyyat və yüksək rifah cəmiyyəti konsepsiyasının inamla reallaşdırılması Şərqlə Qərbin qovşağı olan Azərbaycanın regional siyasi və iqtisadi gücə çevrilməsini təmin edib.

Xüsusi vurğulanıb ki, dövlət başçısının rəhbərliyi ilə sürətli və hərtərəfli yüksəliş dövrünə start verən Azərbaycan dövləti və cəmiyyəti tarixinin ən qüdrətli çağlarını yaşamaqla postpandemiya və postmünaqişə dövründə inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub, həyata keçirilən düşünülmüş sistemli islahatlar iqtisadi və siyasi sabitliyin əsaslarını daha da möhkəmləndirib.

Ölkəmizin inkişaf strategiyasının həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli, ardıcıl və məqsədyönlü fəaliyyətinin qarşıya qoyulan bir çox hədəflərə nail olunmaqla strateji nailiyyətlərin qazanılmasını təmin edən mühüm faktorlardan olduğu diqqətə çatdırılıb.

Baş prokuror dövlət başçısı tərəfindən müstəqil dövlətimizin milli mənafelərinə uyğun məharətlə həyata keçirilən balanslaşdırılmış praqmatik xarici siyasət kursunun qlobal siyasətdə respublikamızın etibarlı tərəfdaş statusunun növbəti dəfə təsdiqlənməsi ilə nəticələndiyini bildirib. Qeyd edib ki, ötən ilin iyulunda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun, həmçinin dekabrda "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasının beynəlxalq aləmlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan, Avroatlantik məkanda cərəyan edən proseslərə çevik və adekvat reaksiya nümayiş etdirən ölkəmizin mövqeyinin daha da möhkəmlənməsinə və nüfuzunun artmasına xidmət etdiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, ötən il qardaş türk dövlətləri arasında müttəfiqliyin daha da inkişaf etdirilməsi, ortaq mənəvi irsin qorunması, regional sülh və sabitliyin güclənməsində mühüm önəmə malik Türk Dövlətləri Təşkilatının növbəti zirvə toplantısı keçirilməklə türk dövlətlərinin ortaq keçmişdən ortaq gələcəyə doğru birgə irəliləməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib.

Region reallıqlarını yaradan ölkəmizin, xalqımızın xoşbəxt, firavan gələcəyinə istiqamətlənmiş böyükmiqyaslı və uzaq məqsədli hədəflərin ötən il ərzində uğurla gerçəkliyə çevrildiyini bildirən baş prokuror 2023-cü il - "Heydər Əliyev İli"ndə Ümummilli Liderin əsasını qoyduğu inkişaf yolu ilə zirvələrə doğru irəliləyən Azərbaycanın dövlət başçısının rəhbərliyi ilə möhtəşəm uğurlar qazanacağına əminliyini ifadə edib.

Kollegiya iclasında qeyd olunub ki, prokurorluq orqanları Prezident İlham Əliyevin diqqət və qayğısı ilə daim əhatə olunub. Hesabat dövründə də bir qrup əməkdaşa ali xüsusi rütbələrin verilməsi dövlət başçısının prokurorluğa göstərdiyi ali dəyəri və etimadı bir daha nümayiş etdirib.

Baş prokuror hesabat məruzəsində 2022-ci ildə də Azərbaycan Prokurorluğunun daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında fəal iştirak etdiyini, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlər gördüyünü bildirib.

Xüsusi qeyd edilib ki, bu müddətdə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş ümumilikdə 17 qəsdən adamöldürmə cinayəti daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılıb. Onlardan 14-ü üzrə ibtidai istintaq yekunlaşdırılaraq baxılması üçün məhkəməyə göndərilib.

Ümumilikdə cinayətkarlığın dinamikasında və strukturunda müşahidə olunan əvvəlki hesabat ilinin müsbət göstəricilərinin 2022-ci ildə də davam etdiyi, əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə qeydə alınmış 36 min 494 cinayətin 88,2 faizinin açılması təmin olunub. Bu cinayətlərin 95,2 faizini prokurorluq və daxili işlər orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər təşkil etdiyi bildirilib.

Qeyd olunub ki, hesabat dövründə ölkə üzrə cəmi 19 min 591 cinayət işinin ibtidai istintaqı tamamlanmaqla 15 min 772 cinayət işi ittiham aktları ilə məhkəmələrə göndərilib. Bunlardan 914-ü prokurorluq orqanlarında istintaq edilib.

Prokurorluq və müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarında aparılmış araşdırmalar üzrə ümumilikdə 454 milyon 781 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilib. İstintaq tədbirləri ilə onun 41,4 faizinin, yəni 188 milyon 293 min manat hissəsinin ödənilməsinə nail olunub. Prokurorluq orqanlarında ibtidai istintaqı aparılmış cinayət işləri və araşdırılmış materiallar üzrə isə vurulmuş maddi ziyanın məbləği 100 milyon 609 min manat olub. Onun 71,1 faizi - 71 milyon 566 min manat hissəsi ödətdirilib.

Bundan başqa, cinayət-prosessual qanunvericiliyinin tələblərinə əsasən, icraatına xitam verilmiş cinayət işləri üzrə cinayət məsuliyyətindən azad edilmiş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 20 milyon 755 min manat pul vəsaiti ödənilib. Həmin məbləğin 20 milyon 213 min manatı prokurorluq orqanlarında istintaqı aparılmış işlər olub.

Qeyd edilib ki, hesabat dövründə ibtidai araşdırma mərhələsində qanunların düzgün icra edilməsinə tam və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə prokurorluq orqanları tərəfindən daxili işlər orqanları üzrə 34 min 932, vergi orqanları üzrə 1369, ədliyyə orqanları üzrə 907, sərhəd xidməti üzrə 424, gömrük orqanları üzrə 342, dövlət təhlükəsizliyi orqanları üzrə 137, fövqəladə hallar orqanları üzrə 65 cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirilib.

Kollegiya iclasında qalibiyyət şərəfini daşıyan respublikamızın gələcək dövr üçün müəyyən edilən əsas strateji hədəflərinə çatmaqda korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlərin sosial-iqtisadi inkişafın başlıca amillərindən biri olması nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə yeni inkişaf mərhələsinin doğurduğu zərurətdən irəli gələn növbəti konseptual sənədin - "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsinin dövlət başçısının bu sahədə siyasi iradəsinin və qətiyyətli mövqeyinin növbəti əyani təsdiqi olduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, ölkəmizdə uğurla yürüdülən islahat konsepsiyalarının davamlılığı ilə xarakterizə olunmaqla yeni inkişaf mərhələsi ilə uzlaşan, çağdaş dövrün spesifik tələblərinin nəzərə alındığı Milli Fəaliyyət Planının icrası bütün dövlət qurumları ilə yanaşı, prokurorluq orqanları üçün də qarşıda duran əsas vəzifələrdən hesab edilməklə Baş Prokurorluq üzrə tədbirlər planı təsdiqlənərək icraya yönəldilib.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 339 şəxs barəsində 240 cinayət işinin ibtidai istintaqı tamamlanaraq 285 şəxs barəsində 209 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib.

İbtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 74 milyon 763 min manat məbləğində maddi ziyandan 52 milyon 243 min manatın ödənilməsi təmin olunub. Həmçinin cinayət qanunvericiliyinin tələblərinə əsasən, cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 19 milyon 461 min manat məbləğində pul vəsaiti ödənilib.

Bundan əlavə, hesabat dövründə aparılmış araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi, həmçinin cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması məqsədilə aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə 245 təqdimat verilib.

Həmin təqdimatlar üzrə 10 şəxs çalışdığı qurumdan xaric edilib, 20 şəxs tutduğu vəzifədən azad olunub və ya müvəqqəti olaraq vəzifəsinin icrasından kənarlaşdırılıb. Eləcə də 93 nəfərə töhmət və ya şiddətli töhmət verilib, 21 şəxsə xəbərdarlıq olunub, 110 halda isə əmək kollektivinin iştirakı ilə müzakirə olunmaqla barələrində zəruri tədbirlər görülüb.

Bildirilib ki, 2022-ci ildə korrupsiya hüquqpozmaları barədə 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi vasitəsilə Baş İdarəyə daxil olmuş müraciətlərin 128-i üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlər görülüb.

Bu müddətdə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edib. Keçirilən əməliyyat tədbirləri nəticəsində korrupsiya cinayəti törədən 45 şəxs cinayət başında yaxalanıb. Habelə axtarışda olan 12 nəfər tutulub, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 196 cinayət işi başlanıb.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsində 118 cinayət işinin ibtidai istintaqı aparılmaqla 82 şəxs barəsində 51 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib. İbtidai istintaqı başa çatdırılmış işlər üzrə dövlətə və ayrı-ayrı hüquqi və fiziki şəxslərə vurulmuş 14 milyon 333 min manat məbləğində ziyandan 12 milyon 209 min manatı ödənilib.

Kollegiya iclasında Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasına və onun vətəndaşlarına qarşı törədilmiş cinayət faktlarına dair başlanılaraq istintaqı aparılmış cinayət işləri, həmçinin sonrakı müddətdə baş vermiş təxribatlarla bağlı cinayət işlərinin ibtidai istintaqının davam etdirildiyi qeyd olunub.

Xüsusi vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərdə növbətçilik əsasında fəaliyyət göstərən rayon prokurorluqları üçün müəyyənləşdirilmiş inzibati binalarda cari təmir işlərinin aparılması təşkil edilməklə binalar müasir qurğu, avadanlıq, informasiya-kommunikasiya xətləri, mebel və kompüter avadanlığı ilə təchiz olunub, dağlıq relyef şəraitində xidmət nəzərə alınaraq müvafiq əraziyə uyğun nəqliyyat vasitələri ilə təmin edilib.

Hesabat dövründə Respublika Hərbi Prokurorluğu orqanları tərəfindən Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər qurumlarla birlikdə görülmüş işlər nəticəsində hərbi intizamın möhkəmləndirildiyi, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alındığı, ordu quruculuğunun yeni mərhələsində zəruri tədbirlərin həyata keçirildiyi bildirilib.

Məlumat verilib ki, dövlət ittihamının müdafiəsi sahəsində prokurorluq orqanları tərəfindən ötən il idarə prokurorlarının iştirakı ilə birinci instansiya məhkəmələrində 17 min 68 şəxs barəsində 15 min 157, apellyasiya instansiyası məhkəmələrində 5135 şəxs barəsində 4443, kassasiya instansiyası məhkəməsində 2193 şəxs barəsində 1912 (bütün instansiya məhkəmələri üzrə cəmi 24 min 396 şəxs barəsində 21 min 512 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilib.

Bu müddətdə 939 apellyasiya və 787 kassasiya protestləri verilib, məhkəmələrdə baxılmış 1097 apellyasiya protestindən 563-ü, 642 kassasiya protestindən isə 157-si təmin olunub.

2022-ci ildə cinayət təqibindən kənar icraatlar üzrə nəzarət tədbirləri ilə əlaqədar qanun pozuntularından çəkindirmək məqsədilə 87 şəxsə xəbərdarlıq edilib, 92 şəxs barəsində təqdimat verilərək, inzibati xəta haqqında iş üzrə 1457 icraatın, həmçinin törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatlar üzrə 220 cinayət işinin başlanaraq, uşaqların hüquqlarının qorunması istiqamətində valideyn hüquqlarının məhdudlaşdırılmasına dair məhkəmələrdə 5 mülki iddia qaldırıldığı qeyd edilib.

Bildirilib ki, xüsusi müsadirənin həyata keçirilməsi istiqamətində prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, aktivlərin bərpası, idarə edilməsi və maliyyə istintaqına dair uğurlu beynəlxalq təcrübənin yaxından öyrənilməsi məqsədilə 2022-ci il fevralın 1-dən Baş Prokurorluğun benefisiarı olduğu "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı tvininq layihəsinin icrasına başlanılmaqla xarici ekspertlərin ölkəmizə çoxsaylı səfərləri, iclaslar və "dəyirmi masa" müzakirələri həyata keçirilib.

Hesabat dövründə xarici ölkələrin prokurorluq orqanları, ixtisaslaşmış beynəlxalq təşkilatlarla ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində çoxsaylı tədbirlər görülüb, bir sıra ölkələrin hüquq-mühafizə orqanları rəhbərlərinin başçılıq etdiyi nümayəndə heyətlərinin Azərbaycana, eləcə də Baş Prokurorluğun nümayəndə heyətlərinin xarici ölkələrə işgüzar səfərləri baş tutulub.

Bu dövrdə Səudiyyə Ərəbistanının baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacib, Qətərin baş prokuroru İssa bin Səad Əl-Nuaimi və Gürcüstanın baş prokuroru İrakli Şotadzenin rəhbərlik etdikləri nümayəndə heyətləri ölkəmizə səfər edib. Qətər ilə Azərbaycan arasında hüquqi əməkdaşlığın gücləndirilməsi məqsədilə bu ölkənin Baş Prokurorluğu ilə əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

Qurumun xarici tərəfdaşlarla səmərəli əməkdaşlığının təzahürü olaraq ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən 18 şəxs tutularaq ölkəmizə ekstradisiya edilib.

Bu sahədə gənc kadrların təcrübə qazanmaları məqsədilə ötən il Avropa Şurasının İnsan hüquqları və qanunun aliliyi Baş Direktoratlığı, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi və Beynəlxalq Prokurorlar Assosiasiyasının hər birinə 1 prokurorluq işçisi ezam olunub. Həmçinin 3 nəfər hazırda Beynəlxalq Antikorrupsiya Akademiyasında magistr pilləsi üzrə qiyabi təhsil alır, 2 nəfər isə həmin təhsil ocağının yay kurslarında iştirak edib.

Bildirilib ki, prokurorluq orqanlarında tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə hesabat dövründə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə ADA Universiteti və Naxçıvan Dövlət Universiteti arasında hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin və müəllimlərin prokurorluqda təcrübə keçməsi, birgə elmi konfransların və görüşlərin keçirilməsi, elmi məqalələrin, tədris-metodiki vəsaitlərin və mətbu nəşrlərin hazırlanması üzrə geniş və səmərəli əməkdaşlığı əhatə edən memorandumlar imzalanıb.

Hesabat dövründə prokurorluq orqanlarında normayaratma və hüquq tətbiqetmə fəaliyyətinin həyata keçirilməsi üzrə səmərəli işlər görülüb, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi ilə əlaqədar Konstitusiya Məhkəməsinə 10 sorğunun hazırlanaraq göndərilməsi, habelə Konstitusiya Məhkəməsində baxılan işlər üzrə 8 yazılı rəyin verilməsi təmin edilməklə yazılı prosedur qaydasında baxılmasında iştirak edilib.

Kollegiya iclasında ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinə uyğun olaraq, prokurorluq orqanlarının hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi istiqamətində sayca 23-cü müsabiqənin nəticəsinə görə 83 namizədin, həmçinin ötən il işə qəbul olunmaq arzusunda olan şəxslər üçün keçirilmiş 24-cü müsabiqədə müvəffəqiyyət qazanmış 57 namizədin cari ildə müvafiq vəzifələrə təyin olunduğu qeyd olunub. Ümumilikdə 2002-ci ildən başlayaraq prokurorluq orqanlarında keçirilmiş 24 müsabiqə nəticəsində uğur qazanmış gənc hüquqşünasların hazırda prokurorluq işçilərinin 88,3 faizini təşkil etdiyi bildirilib.

Qeyd edilib ki, prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlərin görülməsi, bütün struktur qurumlarda möhkəm nizam-intizam şəraitinin yaradılması, aşkar olunan hər hansı nöqsan və çatışmazlıqlara qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq nəticələrin çıxarılması 2022-ci ildə də əsas vəzifələrdən biri kimi diqqət mərkəzində saxlanılıb.

Bildirilib ki, hesabat dövründə xidməti fəaliyyətində yol verdikləri nöqsanlara görə 33 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib. Onlardan 2-si prokurorluq orqanlarından xaric edilib, 8 nəfər vəzifədən azad olunub, 22 nəfərə töhmət və ya şiddətli töhmət, 1 nəfərə isə irad intizam tənbehi tədbiri tətbiq edilib.

Hesabat dövründə prokurorluq orqanlarına daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müxtəlif sahələr üzrə müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi məqsədilə müraciətlərin 8874-nün tam və qismən təmin olunması, həmçinin Baş Prokurorluğun "Çağrı Mərkəzi"nə daxil olmuş müraciətlərdən 565-nin cinayət xarakterli məlumat kimi araşdırılması vətəndaş məmnunluğunun təmin olunması üzrə həyata keçirilən tədbirlərin nəticəsi kimi qiymətləndirilib.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, ötən il baş prokuror tərəfindən respublikanın 21 rayonunda ümumilikdə 62 bölgədən 1106 vətəndaş qəbul edilib. Müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilib, həmçinin təsərrüfat, əmlak, mülki xarakterli mübahisələrə və sosial məsələlərə dair müraciətlərin müvafiq mərkəzi, yerli icra hakimiyyəti və məhkəmə orqanlarında zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə göndərilməsi təmin edilib.

Xüsusi qeyd olunub ki, "Elektron prokurorluq" informasiya sisteminin yaradılması istiqamətində işlər intensivliklə davam etdirilməklə artıq 3 modul üzrə fəaliyyətə başlayan sistemin qısa müddətdə tam şəkildə həyata keçirilməsi prokurorluq orqanlarının funksional vəzifələrinin müasir dövrün elmi-texniki nailiyyətləri tətbiq edilməklə yerinə yetirilməsinə, görülən işləri tam elektronlaşdırılmaqla informasiya ehtiyatlarının analitik təhlilini aparmağa imkan verəcək.

Kollegiya iclasında fəaliyyətdə səmərəliliyin artırılması, artım tendensiyası müşahidə edilən cinayətlərin qarşısının alınması, bağlı qalan bütün cinayətlər üzrə təqsirli şəxslərin müəyyən olunması, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət və prosessual rəhbərliyin keyfiyyətinin artırılması və digər istiqamətlərdə konkret tapşırıqlar verilib.

Daha sonra baş prokurorun birinci müavini Elçin Məmmədov, baş prokurorun müavini-Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov, baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Bakı şəhər prokuroru Elşən Abbasov, Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev və Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev hesabat dövründə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair çıxışlar edib, həmçinin iclasın digər iştirakçıları tərəfindən müzakirələrlə bağlı fikir mübadiləsi aparılıb.

Kollegiya iclasına yekun vuran baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi "Heydər Əliyev İli"ndə öz qüvvələrini səfərbərliyə almaqla dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün öz xidmətlərini göstərəcək.

# Kamal Abdulla yenidən Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri seçilib

Yanvarın 27-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayəçilik Şurasının yeni tərkibdə ilk iclası keçirilib.



BBMM-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclas Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyevanın sədrliyi ilə keçib. Tədbirdə BBMM-in Himayəçilik Şurasının digər üzvləri - Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Milli Tarix Muzeyinin baş direktoru Nailə Vəlixanlı, Rus İcmasının sədri, deputat Mixail Zabelin və Rus Dram Teatrının bədii rəhbəri, Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri, Xalq artisti Aleksandr Şarovski iştirak ediblər.

Rəvan Həsənov qurumun 2022-ci il ərzində gördüyü işlər barədə hesabat verib və 2023-cü il üçün həyata keçiriləcək layihələr barədə geniş məlumat verib.

Toplantıda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvləri Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanı növbəti 4 il müddətinə yenidən sədr seçiblər.

Kamal Abdulla göstərdikləri yüksək etimada görə Prezident İlham Əliyevə və Himayəçilik Şurasının üzvlərinə təşəkkürünü bildirib. BBMM-in Himayəçilik Şurasının sədri qeyd edib ki, qarşıya qoyulan vəzifələr bundan sonra da uğurla həyata keçiriləcək.

# Azərbaycan səfirliyinə siyasi sifarişlə edilən hücum yolverilməz təxribatdır

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilən terrorla bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsi yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı törədilən təcavüz aktını qətiyyətlə pisləyir və siyasi məqsədli terror aktı kimi qiymətləndirir. Bildirir ki, müstəqil Azərbaycanın suveren ərazisinin - səfirliyimizin və onun əməkdaşlarının hədəfə alınması ölkəmizə qarşı yönəlmiş və ümumən, beynəlxalq hüquqazidd terror aktıdır.

"Tehrandakı səfirliyimizin mühafizəsini təmin edərkən - dövlətimizin qorunması yolunda qəhrəmancasına şəhid olan baş leytenant Əsgərov Orxan Rizvan oğlunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, hücumu dəf edərkən yaralanan mühafizə əməkdaşlarına Allahdan şəfalar diləyirik.

Birmənalı şəkildə səfirliyimizə hücumla bağlı bütün məsuliyyəti beynəlxalq hüquq və diplomatik qanunlarla İran tərəfi daşıyır. Bu, diplomatik binaların və diplomatların toxunulmazlığı prinsipinin birbaşa pozulması deməkdir. Səfirliyin təhlükəsizliyinin təmin edilməsi, heç şübhəsiz, səfirliyin yerləşdiyi ölkənin borcudur. Bu terror hadisəsi İranın son vaxtlar Azərbaycana qarşı nümayiş etdirdiyi aqressiv, destruktiv mövqe fonunda şübhə doğurur.

Azərbaycanın dini təsisatı olaraq bəyan edirik ki, ölkəmizə qarşı bu hadisə məzhəbindən asılı olmayaraq, Azərbaycan dindarları tərəfindən hiddətlə qarşılanır", - deyə QMİ-nin bəyanatında qeyd olunub.

Qafqaz Müsəlmanları İdarəsinin bəyanatında vurğulanır ki, İran dövləti müsəlman qardaşını təhdid edən, əli müsəlman qanına bulaşmış, Allah evlərini murdarlayan tərəfə silah, hərbi yardım söz verir, Ermənistanın təhlükəsizliyini İranın təhlükəsizliyi ilə eyniləşdirir. Qeyd olunur ki, Tehrandakı səfirliyimizə silahlı hücum Azərbaycanın dövlət mənafelərinə, xalqımıza birbaşa təhdiddir.

"Dövlətçiliyimizə qarşı hər hansı təhdidə göz yuma bilmərik. Müqəddəs dinimiz İslam bizə haqqın, ədalətin yanında yer almağı təlqin edir. Dini mərkəz olaraq bəyan edirik ki, bütün Azərbaycan məscidlərində bu mənfur terror hücumu pislənilir və hadisənin xalqımıza və dövlətimizə qarşı olan həqiqi mahiyyəti din xadimlərimizin xütbə və moizələrində dindarlara çatdırılacaqdır.

Ölkəmizə qarşı təxribatların arxasında dayanan və təşkilində iştirak edən qüvvələr bilməlidirlər ki, Azərbaycan dindarları ölkəmizə qarşı məkrli qüvvələrin təxribatlarını hiddətlə qarşılayır, kəskin pisləyirlər. Azərbaycan səfirliyinə siyasi sifarişlə təşkil olunan hücum yolverilməz təxribatdır və bütün Azərbaycan dindarları tələb edirlər ki, İran hökuməti hadisə ilə bağlı lazımi ölçü götürsün, terrorda əli olanları təcili cəzalandırsın", - deyə bəyanatda bildirilib.

# *Kolyux:* "Səfirliyə hücum regionda sabitliyi pozmaq cəhdinin bariz nümunəsidir"

Azərbaycanın İrandakı səfirliyinə hücum regionda siyasi sabitliyin pozulması ssenarisini həyata keçirmək cəhdinin bariz nümunəsidir. Ukrayna bu cür hərəkətləri pisləyir. Sivil dünyada belə təcrübələrə yer yoxdur. Onların kökü ümumbəşəri dəyərlər, dünya miqyasında ölkələr arasında qarşılıqlı anlaşma və etimad naminə qətiyyətlə aradan qaldırılmalıdır.

Bu fikirləri AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan Parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux söyləyib. Deputatın sözlərinə görə, bu, nəinki beynəlxalq hüququn normalarına təhlükə yaradan, həm də prinsipcə əvvəllər "diplomatik əlaqələr" adlandırdığımız münasibətlərin əsasında duran kövrək etimadı məhv edən son dərəcə mənfi tendensiyadır.

"Təəssüf ki, müxtəlif ölkələrin səfirliklərinə hücumlar getdikcə adi hala, siyasi və hətta geosiyasi qarşıdurma alətinə çevrilir. Ən pisi odur ki, bütün bu oyunların arxasında insan həyatı dayanır. Bu gün Azərbaycan bölgədə yeni müharibə və daha çox qan tökmək arzusunda olanlara görə öz vətəndaşını itirdi. Bu, dəhşətdir", - deyə Valeriy Kolyux vurğulayıb.

Mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların tezliklə sağalmasını arzulayan deputat bildirib: "Ümid edirəm ki, qərəzsiz araşdırma aparılacaq, nəticədə nəinki bu mənfur hücumun günahkarları və təşkilatçıları, eyni zamanda onları buna təhrik edənlər cəzalandırılacaq".

# Niderland Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən qanlı terror hücumunu pisləyib

Niderland Azərbaycanın İrandakı səfirliyinə qarşı bu gün törədilən qanlı terror hücumunu pisləyib.

AZƏRTAC xəbər verir ki, bu barədə Niderland Xarici İşlər Nazirliyinin tviter səhifəsindəki paylaşımda qeyd olunub. Paylaşımda diplomatik nümayəndəliklərə və onların əməkdaşlarına qarşı hücumun yolverilməz olduğu bildirilib. Həmçinin həlak olan mühafizəçinin ailəsinə dərin hüznlə başsağlığı verilib, yaralananların tezliklə sağalması arzu edilib.

# "Rəqəmsal jurnalistika" mövzusunda təlimlərə yekun vurulub

Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən "Rəqəmsal jurnalistika" təlim proqramı uğurla yekunlaşıb.

Medianın İnkişafı Agentliyindən AZƏRTAC-a bildirilib ki, təlimləri "Daily Mail UK", "The Australian", "Sunday Telegraph UK" kimi bir çox tanınmış xəbər agentliklərində redaktor vəzifəsində çalışmış, hazırda baş ofisi Londonda yerləşən "High Park Communications" media şirkətinin təsisçisi və direktoru olan Kolin Gibson aparıb.

K.Gibson üç gün davam edən təlimlərdə iştirakçılara "Biznes planlarının və redaksiya siyasətinin rəqəmsal strategiyaya uyğunlaşdırılması", "Rəqəmsal media kampaniyalarının yaradılması, düzgün auditoriyaya çatdırılması və izlənilməsi", "Analitikaya əsaslanan rəqəmsal media: daha çox kütləyə çatmaq üçün data əsaslı əməliyyatların optimallaşdırılması" və sair kimi mövzularda təlim keçib, qeyd olunan istiqamətlərdə geniş fikir mübadiləsi aparılıb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

Qırx nəfər jurnalistin iştirakı ilə keçirilən "Rəqəmsal jurnalistika" təlim proqramının əsas məqsədi jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsi, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsi, rəqəmsal media ekosisteminin inkişafına töhfə verilməsidir.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Ermənilərin yeganə çıxış yolu tələblərimizi yerinə yetirməkdir

Şuşada havanın temperaturu mənfi 9 dərəcə olsa da, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının ermənilərin qanunsuz istismar etmələrinə etiraz olaraq ekofəalların və QHT təmsilçilərinin Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası coşqu ilə davam edir. Gənclər gecəni səhərə kimi vətənpərvərlik mövzusunda mahnılar səsləndirirlər. Şuşa səhəri ənənəvi olaraq Azərbaycan himninin sədaları ilə açılır.



Xatırladaq ki, "Qızılbulaq" qızıl yatağı Qarabağ separatçılarının nəzarəti altında olan keçmiş Ağdərə rayonu ərazisində yerləşir. Qızılbulaq kəndi hazırda Kəlbəcər rayonunun inzibati ərazisinə daxildir.

"Dəmirli" mis-molibden yatağı isə Tərtər rayonunun inzibati ərazisinə daxildir. Vaxtilə keçmiş Ağdərə rayonuna daxil olan Dəmirli kəndi Milli Məclisin 13 oktyabr 1992-ci il tarixli qərarı ilə Tərtər rayonunun tərkibinə verilib.

Azərbaycanın ən böyük mis yataqlarından biri məhz bu kənddə yerləşir. Hələ 2019-cu ildə "Azersky" peyklərinin təsvirləri vasitəsilə "Dəmirli" mədən yatağının 740 hektar ərazisində ermənilər tərəfindən qanunsuz olaraq geoloji kəşfiyyat, qazıntı-hasilat işlərinin və yeni infrastruktur elementlərinin yarandığı müşahidə edilmişdir.

Ermənilər Qarabağı işğal etdikdən sonra Kəlbəcər rayonu ərazisində yerləşən "Zod", "Qızılbulaq", o cümlədən Zəngilanın "Vejnəli" qızıl yataqlarını talan edərək hər il on milyonlarla dollar qazanc götürüblər.

Azərbaycan hökuməti 1997-ci ildə ABŞ-nin Delaver ştatında qeydiyyatdan keçən, dağ-mədən sənayesi sahəsində böyük təcrübəyə malik "Anglo-Asian Mining" şirkəti ilə müqavilə bağlayıb mədənlərin istismar olunması haqqında adıçəkilən şirkətə sertifikat verib. Eyni zamanda "Vejnəli" və "Zod" yataqları ilə yanaşı, sülhməramlı kontingentin nəzarəti altında olan "Qızılbulaq" yatağının istismarı barədə lisenziya da Azərbaycan hökuməti tərəfindən "Anglo-Asian Mining" şirkətinə verilib. Amma yataqlar Ermənistanın işğal etdikləri ərazilərdə yerləşdiyi üçün şirkət tərəfindən istismarı mümkün olmayıb.

Şirkət 2020-ci il oktyabrın 27-də Zəngilanın Vejnəli qızıl yatağı ilə bağlı yaydığı press-relizdə "Təhlükəsizlik təmin olunan kimi şirkət dərhal işə başlayacaq", - barədə açıqlama verib.

2020-ci ilə qədər "Qızılbulaq" və "Dəmirli" yataqları "Base Metals" şirkəti tərəfindən istismar olunaraq separatçıların əsas gəlir mənbəyi olub. Belə ki, şirkət təkcə 2019-cu ildə separatçı rejimə 38,5 milyon dollar vergi ödəyib. Bu da separatçı rejimin ixracının 60 faizi, ümumi gəlirin 32 faizi deməkdir. Azərbaycan Baş Prokurorluğunun apardığı araşdırma nəticəsində məlum olub ki, "Vallex Group" və "Base Metals" şirkətləri 2009-2017-ci illərdə "Qızılbulaq" yatağında apardıqları qanunsuz istismar nəticəsində 178 milyon dollar qazanc əldə ediblər. Xatırladaq ki, "Vallex Group"a Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın şəxsən "vətənə xidmətə görə" medalı ilə mükafatlandırdığı Rusiya vətəndaşı olan erməni biznesmen Valeri Meclumyan sədrlik edir.

Müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində çaldığı qələbə onsuz da iqtisadi bataqlıq girdabında çabalayan Ermənistanı daha da ağır duruma saldı. İqtisadi-siyasi-hərbi böhran keçirən Ermənistan "çıxış yolunu" yenə də Azərbaycanın təbii sərvətlərini talamaqda "tapdı". Təbii ki, ərazilərin Rusiya sülhməramlılarının nəzarəti altında olması da ermənilərin işinə yaradı. Amma bircə məsələni unudurdular ki, "örkən nə qədər uzun olsa da, yenə gəlib doğanaqdan keçir".

Ermənilər talan etdikləri sərvətləri onlara humanitar məqsəd üçün verilmiş Laçın-Xankəndi yolu ilə daşımalı olduqlarını unutdular. Gözləri o qədər bağlandı ki, igidlərimizin can verib, qan töküb aldıqları torpaqlardan keçməyin mümkün olmadığını, Azərbaycanın bu mənzərəyə seyrçi gözlə baxmayacağını ağıllarına belə gətirmədilər.

Ermənistan və onun iqtisadi terroruna dəm tutanlar azərbaycanlı gənc vətənpərvərlərin keçirdikləri dinc etiraz aksiyasından öz çirkin siyasi məqsədləri üçün istifadə edib Azərbaycana qarşı yeni qarayaxma kampaniyası aparırlar. İstər Ermənistanın cinayətkar əməllərinə haqq qazandıran dövlətlər, istərsə də beynəlxalq təşkilatlar ermənilərin etdiyi talançılığı təkzib edə bilmirlər. Ortalıqda həm ekoloji, həm də iqtisadi terror faktı mövcuddur. Azərbaycanın sərvətləri göz görə-görə talan edilir. Amma bütün bunlara baxmayaraq, Ermənistana "dur, qanunsuz əməllərini dayandır" deyən olmur. Ona görə ki, bu gün daha çox hay-küy salan dövlətləri də, onların sifarişlərini yerinə yetirən Avropa Parlamentini də Qarabağ ermənilərinin taleyi maraqlandırmır. Qarabağ faktoru süni yolla, Azərbaycana təzyiq vasitəsi kimi yaradılıb. İstər Fransa, istərsə də bu ölkənin təsiri altına düşmüş Avropa parlamentarilərinin Cənubi Qafqaz dərdi var. 44 günlük Vətən müharibəsi zamanı 30 illik fəaliyyəti fiaskoya uğrayan Fransanın Cənubi Qafqazda mövqeyi tamamilə zəifləyib. Əslində, hərbi cəhətdən tam məğlubiyyətə uğramış Ermənistan yox, Fransa revanş götürüb özünü Qafqaza yenidən pərçim etmək istəyir. Hətta etik normaları, beynəlxalq hüququ pozmaqdan belə çəkinmir. Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunu, Cənubi Qafqaz siyasətində həlledici rolunu həzm edə bilmir.

Azərbaycanlı gənclərin başladıqları etiraz aksiyası Qərb üçün əsl sürpriz oldu. Artıq 47 gündür ki, fransalı deputatlar Xankəndiyə gəlib seperatçıları qızışdıra bilmirlər. Fransanın, Hindistanın və digər dövlətlərin Ermənistana verdikləri silahları Qarabağa daşıya bilmirlər. Təbii sərvətlərimizin talan olunub Ermənistana daşınmasının da qarşısı alınıb.

Aksiyanın keçirildiyi 48 gündə Qarabağın erməni əhalisinin də düşünmək üçün kifayət qədər vaxtları olub. Ermənilər gücün, hüququn kimin tərəfində olduğunu anlamağa başlayıblar. Dərk edirlər ki, Fransanın yandırdığı şamın istisinə Qarabağda nəyisə etmək mümkün deyil. Yeganə çıxış yolu Azərbaycanın təklifini qəbul edib sülh sazişini imzalamaqdır. Ermənistan onu da yaxşı bilir ki, BMT-nin işğal olunmuş rayonlardan qoşunlarını çıxarmaq barədə 4 qətnaməsini düz 30 il icra etməyib.

Bu, bir həqiqətdir ki, güc kimdədirsə, dünya birliyi onunla hesablaşır. Bu gün haqq da, hüquq da Azərbaycanın tərəfindədir. Ərazilərimizdə yaşayan ermənilər qanunlarımızla yaşamalıdırlar. Bunu bacarmayanlara yol hər zaman açıqdır. İstər Rusiya sülhməramlılarının üstü tentli maşınları ilə, istərsə də avtobuslarla ölkəmizdən gedə bilərlər. Onlara bu gerçəklik çox sadə dildə izah edilib.

Əlaqə saxladığımız aksiya iştirakçısı Telman Həsənli bizimlə söhbət zamanı bildirdi: "Bir aydan çoxdur ki, fasiləsiz olaraq aksiyamızı davam etdiririk. Nə soyuq, nə erməni yalanları, nə də Qərbin şantajı bizi mübarizəmizdən çəkindirməyəcək. Aksiyanın dayanması şərtlərimizin yerinə yetirilməsindən asılıdır. Tələblərimizi yerinə yetirsinlər, aksiyanı dayandıraq".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



# Aksiya iştirakçıları hər zaman olduğu kimi Dövlət himnini səsləndiriblər

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 48 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, havanın şaxtalı olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət himnini səsləndiriblər.




# Sülhməramlıların və BQXK-nin avtomobilləri aksiya ərazisindən maneəsiz keçib





Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edirlər.

Laçından Xankəndi istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus bir təminat avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb.

* * *

Ekoaksiyanın iştirakçıları yanvarın 27-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus bir yük və altı minik avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

* * *

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edirlər.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus 18 təminat-təchizat və 2 minik avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb.

Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

***AZƏRTAC***

◆ Elm xadimləri

# Onun işıq payı



Azərbaycanın elm tarixində aydın fikirləri ilə seçilən, qadın hərəkatında fəal mövqeyi ilə fərqlənən insanlardan biri də görkəmli oftalmoloq-cərrah, pedaqoq, gözəl ziyalı Zəhra xanım Quliyevadır.

Z.Quliyeva şəxsiyyəti, xidmətləri və imzası ilə elmi və ictimai-siyasi mühitə yaxşı məlum olan alimlərimizdəndir. O, gərgin tarixi dövrlərdə yaşamışdır. Ayıq bir müdriklik, cəsarət, dövrün ağrılı həqiqətlərini səlahiyyətli kürsülərdən etiraf etmək bacarığı, eyni zamanda haqsızlığa qarşı barışmaz mövqedə durmaq onun xarakterini səciyyələndirən xüsusiyyətlər idi. Haqqın, halallığın, insaniyyətin tərəfdarı, neqativ fikir və düşüncələrin əleyhinə idi.

Zəhra Quliyeva ziyalı ailəsində anadan olmuşdu. El ruhunu duyan və milli dəyərlərə pərəstiş edən bir şəxsin ailəsində böyümüşdü. Atası Tahir bəy Hacıqafar oğlu ali təhsilini Rusiyada Dəmir yolu Nəqliyyatı İnstitutunda almış, mühəndis ixtisasına yiyələnmişdi. O, praktiki işlə yanaşı, elmi, pedaqoji fəaliyyətlə də məşğul olmuşdu. Əsl xalq müəllimi, el ağsaqqalı kimi sayılıb seçilmişdi. Tahir bəy professor adına layiq görülən ilk azərbaycanlılardan idi. Savadlı, müasir həyatı başa düşən adamların az olduğu həmin illərdə ziyalılar nümunə və nüfuz sahibi olmaqdan savayı, onların evləri həm də məsləhət və sayğı ünvanı idi. Tahir bəyin də evinin qapıları insanların üzünə həmişə açıq olmuş, dövrün qabaqcıl fikirli alimlərinin toplaşdıqları ocağa çevrilmişdi. Zəhra Quliyeva məhz belə bir mühitdə böyüyüb formalaşmışdı. Atasından elmə, təhsilə sevgi, milli kökə bağlılıq, torpağa məhəbbət dərsləri almışdı.

Z.Quliyeva həkimliyi özünə peşə seçmişdi, 1940-cı ildə Azərbaycan Tibb Universitetinə daxil olmuşdu. Təhsil aldığı illər qanlı-qadalı, müharibənin ən ağır, məşəqqətli dövrünə düşdüyü üçün ailəyə kömək etmək lazım idi. Ona görə də gənc Zəhra oxuya-oxuya işləmək məcburiyyətində qalmışdı. Xatirələrində bu barədə yazırdı: "Qrup yoldaşım Aliyə İbrahimbəyova ilə Qanköçürmə İnstitutunda işə düzəldik. Donor-cərrah kimi donorlardan qan götürürdük… Tələbələrimizin əksəriyyəti hospitallarda çalışır, yaralılara kömək edirdilər. İnstitutumuzda professor Yeqorov var idi. Görürdü ki, tələbələrin çoxu işləyir, ona görə də mühazirələri sərbəst elan etmişdi. Nəbzimiz cəbhə ilə birgə vururdu. Hamı cəbhə üçün işləyirdi".

## Elmi uğurları

1944-cü ildə ali təhsilini başa vuran Z.Quliyeva Göz xəstəlikləri kafedrasında ordinator vəzifəsində saxlanmışdı. İkinci Dünya müharibəsindən sonra insanlarda quruculuq işlərinə böyük həvəs var idi. Onlar müharibənin arxada qaldığına sevinir, çətinliyin və məhrumiyyətlərin olmayacağı həyatı qurmağa tələsirdilər. Zəhra Quliyeva bu dövrdə elmi-pedaqoji fəaliyyətə başlamışdı. O, 1946-cı ildə assistent, 1949-cu ildə dosent seçilmiş, 1958-ci ildə namizədlik, 1967-ci ildə doktorluq dissertasiyaları müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. 1968-ci ildə ATU-nun Oftalmologiya kafedrasının professoru, 1975-ci ildə isə həmin kafedranın müdiri seçilmişdi. Görkəmli alim dörd monoqrafiyanın, 160-dan artıq elmi məqalənin, dörd dərs vəsaitinin, Azərbaycan dilində çıxan "Göz xəstəlikləri" kitabının, bir ixtiranın və dörd səmərələşdirici təklifin müəllifi olmuşdur. Zəhra xanım uzun müddət Oftalmologiya kafedrasına rəhbərlik etmiş, sevimli müəllimi Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Ümnisə xanım Musabəyovanın ənənələrinə sadiq qalaraq həkim və elmi-pedaqoji kadrların yüksək səviyyədə hazırlanmasına xüsusi səy göstərmişdir. 1975-ci ildən Azərbaycan Oftalmologiya Cəmiyyətinin sədri, Ümumittifaq Oftalmoloqlar Cəmiyyətinin üzvü olmuşdur. ABŞ, Almaniya, Polşa, İsveçrə, Danimarka, Norveç, Finlandiya, Baltik Dənizi ölkələrində keçirilən konqreslərdə, qurultaylarda, sülh günlərində iştirak etmişdir.

Ziyalı üçün vacib sayılan ən mühüm keyfiyyətlərdən biri də onun aydın mövqeyə sahib olması, taleyüklü məqamlarda xalqının mənafeyi baxımından dürüst olanı seçməsi, lazımi anda qətiyyət, cəsarət nümayiş etdirməsidir.

## Vətənpərvər ziyalı qadın

Zəhra Quliyeva yaxşı alim olmaqla yanaşı, həm də milli ideallara bağlı vətənpərvər ziyalı kimi daim Azərbaycanın gələcəyini düşünmüş, dövrünün ictimai-siyasi hadisələrinə laqeyd qalmamışdır. Ümummilli Lider Heydər Əliyevin siyasi kursuna sadiqlik xəttini seçmiş, onun rəhbərliyi altında həyata keçirilən dövlət quruculuğu prosesində fəal iştirak etmişdir. Zəhra xanım xatirələrində yazırdı: "Özümü xoşbəxt sayıram ona görə ki, mənəviyyatca yüksək, qüdrətli insanlarla bir dövrdə yaşamışam, çalışmışam, onları özümə arxa-dayaq saymışam. Tale məni həyatda qüdrətli şəxsiyyət Heydər Əliyevlə qarşılaşdırdı. Bu dahi şəxsiyyət həyatıma mayak kimi yaşıl işıq yandırdı, yüksəlişimdə, cəmiyyətdə mövqe tutmağımda həmişə mənə qayğı göstərdi. Həyatda qazandığım bütün uğurlara görə, mən yalnız ona borcluyam. Rektor təyin edilməyim, komitə sədri olmağım Heydər Əlirza oğlunun mənə göstərdiyi etimadın, qayğının, xoş münasibətin təzahürüdür. Bu dahi insanın həyat yoldaşı akademik Zərifə xanımla bir yerdə işləmişəm, dostluq, yoldaşlıq etmişəm". Zəhra xanım bütün bunları minnətdarlıq hissi ilə xatırlayır, ona böyük etimad göstərildiyini həmişə qeyd edirdi.

Professor 1972-ci ildə Azərbaycan Tibb İnstitutunun rektoru təyin olundu. Bununla da onun həkimlik, müəllimlik və müalicə sahəsindəki işinə çox mühüm bir vəzifə də əlavə edildi. Zəhra xanım institutda ilk növbədə intizamın möhkəmləndirilməsinə, təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə, professor-müəllim heyətinin, tələbələrin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına nail oldu. Qısa bir vaxtda təhsil ocağında əsaslı islahatlar aparıldı. Ümummilli Lider Heydər Əliyev ATU-nun 70 illik yubileyindəki nitqində Zəhra xanımın ozamankı xidmətlərini yüksək dəyərləndirmişdi: "Mən Azərbaycana rəhbərlik etdiyim zaman Tibb İnstitutuna uzun illər - 11 il Zəhra xanım Quliyeva rəhbərlik edibdir. Ona görə də bu gün onun adını çəkmək çox lazımdır… Böyük fəaliyyətinə görə biz onu Azərbaycanın Qadın Problemləri üzrə Dövlət Komitəsinə sədr təyin etmişik və bununla da qadın hərəkatını genişləndirmək istəyirik".

1998-ci ildə Ümummilli Liderin fərmanı ilə Z.Quliyeva Qadın Problemləri üzrə Dövlət Komitəsinə sədr təyin olundu. Zəhra xanım hələ sovet dövründə Azərbaycan qadınlarının maariflənməsi, ideya tərbiyəsi işində fəal iştirak etmiş, qızlarımızın təhsilə, elmə cəlb olunmasında böyük rol oynamışdır. Sovetlər İttifaqında Qadın Problemləri üzrə Komitənin sədri, məşhur kosmonavt Valentina Tereşkovanın müavini işləmişdir. Zəhra xanım komitəyə sədr seçildikdən sonra qadın siyasətinin müasir tələblər səviyyəsində qurulması, gender siyasətinin həyata keçirilməsinə diqqətin artırılması, beynəlxalq aləmdə Azərbaycan qadınının imicinin yaradılması sahəsində ciddi işlər görüldü, Azərbaycanın haqq sözünün, doğma yurdlarından didərgin düşmüş minlərlə qadın və uşaqların insani hüquqlarının pozulması haqqında ən nüfuzlu beynəlxalq təşkilatların kürsülərindən bəyanatlar verildi. Zəhra Quliyeva 2000-ci ildə Nyu-Yorkda "Qadınlar 2000-ci ildə: gender bərabərliyi - sülh və inkişaf XX1 əsrdə" mövzusunda BMT-nin Baş Assambleyasının xüsusi sessiyasında çıxış edən ilk azərbaycanlı qadın olmuşdur.

## Z.Quliyeva o dövrdə qadın hərəkatının lideri imicini qazanmışdı

Ona insanların sonsuz ehtiramı nəcibliyi və ləyaqəti ilə bağlı idi. Z.Quliyevanın xarakterinə xas yüksək mədəniyyət, intellekt, səmimiyyət, xeyirxahlıq onu ətrafdakılara doğmalaşdıran və sevdirən ən mühüm keyfiyyətlər idi. O, bir şəxsiyyət kimi çox keşməkeşli həyat yaşadığından yetirmələrinə müstəsna dərəcədə dərin inam bəsləyirdi. Bu da onların həm şəxsi həyatlarının, həm iş, həm də elmi problemlərinin həllində qarşıya çıxan çətinliklərin müvəffəqiyyətlə aradan qaldırılmasına böyük psixoloji yardım göstərirdi. Onun bu insani keyfiyyətləri bütün dövrlərdə gənclərin elmi-tədqiqat işlərinə cəlb edilməsi və onların tədqiqatçı-alim, vətənpərvər yetişməsi üçün əsas amil olmuşdur.

Zəhra xanım respublikamız və onun xaricində geniş ictimaiyyət tərəfindən dərin hörmət bəslənilən ziyalılardan olduğundan, onun həyatı maraqlı görüş və hadisələrlə zəngin idi. Çıxışları yığıncaqlarda xüsusi əhvali-ruhiyyə yaradırdı. Sağlam ziyalı mövqeyi hər yerdə özünü göstərirdi. Cəsarətli təşəbbüsləri onu hamının gözündə ucaldırdı. Hər məsələ sülh ilə həll olunurdu.

Z.Quliyeva hər zaman üçün nümunə olan bir həyat yaşamışdır, tükənməz məhəbbət, unudulmaz xatirələr, saysız-hesabsız təşəkkürlər qazanmışdır. Bu gün haradasa bir xeyirxahlıq görəndə Zəhra xanım yada düşür. Onu hər yerdə, hər evdə böyük kimi sevər, ehtiram göstərərdilər. Nəcibliyin, kübarlığın timsalı olan Z.Quliyeva 2005-ci ildə dünyasını dəyişmişdir. Bu ilin yanvarında isə onun 100 yaşı tamam olur.

Görkəmli alim, ictimai xadim Zəhra Quliyeva böyük qəlbə malik insan idi. O, daim yaddaşlarda yaşayacaqdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Heydər Əliyev İli"nə dəyərli töhfə

## "Qırmızı kitab"ın III nəşri yekunlaşmaq üzrədir

Təbii-iqlim şəraitinin, geoloji-relyef quruluşunun mürəkkəbliyi ilə əlaqədar Azərbaycan biomüxtəlifliyin zənginliyinə görə dünyada qabaqcıl yerlərdən birini tutur. Qlobal iqlim dəyişikliklərinin, antropogen amillərin təsiri, Azərbaycan ərazilərinin 2020-ci ilə kimi Ermənistan tərəfindən beynəlxalq hüquqa və konvensiyalara məhəl qoymadan ekoloji terrora məruz qalması bölgənin unikal biomüxtəlifliyinə də ciddi ziyan vurmuşdur. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə bioloji müxtəlifliyinin də xilası üçün tarixi şans yaranmışdır.

Artıq ay yarıma yaxındır ki, Azərbaycan ekoloqlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, gənc fəalların Laçın-Şuşa yolunda ermənilərin törətdiyi ekoloji terrora qarşı etiraz aksiyası keçirilməkdədir. Bu və ya digər səbəblərdən itmək təhlükəsində olan bioloji müxtəliflik elementlərinin xilası üçün Azərbaycanda da beynəlxalq sistemə uyğun olaraq qırmızı siyahılar və onların əsasında Azərbaycan Respublikasının "Qırmızı kitab"ı tərtib olunur. Azərbaycan Respublikasının "Qırmızı kitab"ının nəşrləri Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən AMEA ilə əlaqəli təşkil edilir. Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli qərarı ilə qəbul edilmiş Əsasnaməyə uyğun olaraq, 2019-cu ildən "Qırmızı kitab"ın III nəşrinin hazırlanmasına başlanılmış, AMEA-da müvafiq qərarlar qəbul edilərək həyata keçirilmişdir. Tədqiqatlar bütün respublikanı, həmçinin işğaldan azad edilmiş əraziləri də əhatə etmişdir. Hazırda kitab üzərində son tamamlama işləri aparılır. "Qırmızı kitab"ın III nəşri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli sərəncamının icrası ilə bağlı AMEA-nın Tədbirlər planına daxil edilmişdir və nəşr "Heydər Əliyev İli"nə ETSN, AMEA və ETN-in müvafiq institutlarının mühüm töhfəsi olacaqdır.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, ölkəmiz bir sıra flora və fauna növlərinin ilkin əmələgəlmə mərkəzlərindəndir. Lakin antropogen landşaftların, o cümlədən urbanizasiyanın və əkin sahələrinin genişlənməsi, qlobal iqlim dəyişikliklərinin intensivləşməsi, fraqmentasiyanın və digər mənfi stres amillərinin güclənməsi ilə bağlı təbii mühitlərin itirilməsi bəzi bitki və heyvan növlərinin də yox olmasına, bir çoxunun isə itmək təhlükəsi ilə üzləşməsinə gətirib çıxarmışdır. Son 30 ildə Azərbaycanın biomüxtəlifliyinə daha bir ciddi təhdid isə respublika ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi və 2020-ci ilə isə kimi işğal altında saxlanılaraq ekoloji terrora məruz qoyulması idi.

İşğalçılar tərəfindən təbii landşaftlara, meşə örtüyünə vurulan zərərlər, hərbi əməliyyatlar zamanı qadağan edilmiş silahlardan istifadə nəticəsində bir sıra beynəlxalq konvensiyalara (UNESCO-nun Ramsar Konvensiyası - 1971, BMT-nin Bioloji müxtəliflik haqqında Konvensiyası - 1992, BMT-nin Avropa İqtisadi Komissiyasının "Məlumat əldə etmək, qərar vermə prosesində ictimaiyyətin iştirakı və ətraf mühit məsələlərində ədalətə çıxış haqqında" Orhus Konvensiyası - 1998, Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Bern Konvensiyası - 1999 və s.) BMT-nin Davamlı İnkişaf Məqsədlərinə, digər müvafiq beynəlxalq sənəd və qanunvericilik aktlarına zidd olaraq, bölgənin unikal biomüxtəlifliyinə də ciddi ziyan vurulmuşdur. Vurulmuş zərərin tam miqyasını ərazilərimiz minalardan təmizləndikdən sonra daha dəqiq müəyyənləşdirmək olacaqdır. Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətində olan ərazilərdə ermənilər tərəfindən ekoloji terror və talan siyasəti davam etdirildiyindən monitorinq və qiymətləndirmə işlərinin aparılması qeyri-mümkündür.

Artıq ay yarıma yaxındır ki, Azərbaycanın QHT-ləri, vətənpərvər ekofəallar Laçın yolunda toplaşaraq etiraz aksiyası keçirməkdədirlər. Bu akt ilkin olaraq azərbaycanlı mütəxəssislərin "Qızılbulaq" qızıl yatağına və "Dəmirli" mis-molibden yatağına buraxılması tələbi ilə keçirilsə də, ümumilikdə Ermənistanın Qarabağı işğalda saxladığı dövrdə törətdiyi ekoloji terrora, həmçinin yerüstü təbii sərvətlərimizin vəhşicəsinə talanmasına qarşı xalqın səbrinin tükənməsinin, ictimai fikrin göstəricisi hesab edilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, bu və ya digər stres amillərinin məcmusu, əsasən də insanın təbiətə istismarçı münasibəti Yer üzərində canlı həyatın davamının təminatçısı olan növ müxtəlifliyinin azalmasına, bir çox qiymətli bitki, göbələk və heyvan taksonlarının aşınmaya uğramasına səbəb olur. Vəziyyətin ciddiliyini dərk edən tərəqqipərvər bəşəriyyət, xüsusən elmi dairələr hələ ötən əsrin ortalarından başlayaraq həyəcan təbili çalmış və müvafiq instansiyaların bu təhlükəli prosesə lazımi reaksiya verməsinə nail olmuşlar. Dünya birliyi tərəfindən ətraf mühitin, o cümlədən bioloji müxtəlifliyin qorunması üzrə beynəlxalq konvensiyalar, digər mühüm sənədlər (bəzilərinin adları yuxarıda qeyd olunmuşdur) qəbul edilmiş, onların icrası üçün bütün mümkün tədbirlər həyata keçirilmişdir. Beynəlxalq, regional və milli səviyyələrdə təhlükə altında olan növlərin qırmızı siyahıları hazırlanaraq mütəmadi olaraq yenilənir, bu siyahılar üzrə lazımi məlumatlar ölkələrin və müəyyən regionların rəsmi "qırmızı kitab"ları şəklində dərc edilir.

Məhv olmaq təhlükəsində olan növlərin qırmızı və çəhrayı siyahılarının yaradılması, qiymətləndirmənin kateqoriya və meyarlarının müəyyən edilməsi və yüksək risk altında olan növlərin təsnif edilməsi üçün Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) tərəfindən müvafiq sistem (1989) yaradılmışdır. Təhlükə altında olan növlərin kateqoriya və meyarlarının dəqiqləşdirilməsi üçün 1994-cü ildən Qırmızı sorğu kitablarından istifadə edilir və demək olar ki, 30 il ərzində qeyd edilən siyahılar, eləcə də kateqoriya və meyarlar bir neçə dəfə yenilənmiş, modifikasiya olunmuşdur.

Azərbaycan Respublikası da prosesdən kənarda qalmamışdır. Dövlətin dəstəyi ilə "qırmızı siyahı"ların hazırlanması və nəşri, nadir və itmək təhlükəsində olan növlərin mühafizəsi üçün görülən tədbirlər daim diqqət mərkəzində saxlanılmışdır. Bu tədbirlərdən ən mühümü isə respublika ərazisində nadir və nəsli kəsilmək təhlükəsi altında olan vəhşi heyvan, yabanı bitki və göbələk növlərinin funksional vəziyyəti haqqında rəsmi dövlət sənədi olan Azərbaycan Respublikasının "Qırmızı kitab"ının mütəmadi hazırlanması və nəşri hesab edilə bilər. Bu kitab, fauna və floranın qırmızı siyahısı bütün dünyada olduğu kimi, növlər və ekosistemlər səviyyəsində ilkin xəbərdarlıq sistemi olmaqla, mühafizə fəaliyyətlərinin istiqamətlərini də müəyyən edir.

Azərbaycan Respublikasının "Qırmızı kitab"ına fauna və flora növləri 2 kateqoriya üzrə daxil edilir: yoxa çıxmaq təhlükəsində olan və nadir növlər.

Birinci kateqoriyaya bir sıra mənfi amillərin təsiri nəticəsində (tələf olması və yaşadığı yerlərin dağıdılması) sayı və arealı əhəmiyyətli dərəcədə azalan və böhran səviyyəsinə çatan növlər daxildir. Sayı azalmağa doğru meyil edən və kiçik sahələrdə rast gəlinən növlər isə nadir növlərə aiddir. Az öyrənilmiş, təbiətdə sayı və ehtiyatları haqqında lazımi məlumat olmayan, mühafizəsinin təşkili işində müəyyən çətinliklər olan heyvan və bitki növləri də nadir növlər hesab olunur.

Azərbaycan Respublikasının 1-ci "Qırmızı kitab"ı ilk dəfə hələ sovetlər dönəmində - 1989-cu ildə nəşr olunmuşdur. "Qırmızı kitab"ın II nəşri isə xeyli sonra - 2013-cü ildə hazırlanmış və 2 cilddə çap edilmişdir.

"Qırmızı kitab"ın III nəşri üçün qarşıya qoyulan əsas məsələlər aşağıdakı kimi planlaşdırılmışdır: ilkin siyahıların müəyyənləşdirilməsi; çöl məlumatlarının (bitkilər üçün həmçinin herbari) materiallarının toplanması; nadir və təhlükə altında olan növlərin beynəlxalq və yerli kateqoriya və kriteriyalar üzrə qiymətləndirilərək taksonomik statusunun aydınlaşdırılması; elektron məlumat bazasının yaradılması; növlərin şəkillərinin çəkilməsi və yayılma xəritələrinin hazırlanması, oçerklərin yazılması, kitabın tərtibatı.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin təşkilatçılığı və əlaqələndiriciliyi ilə aparılmış müzakirələrin nəticələri nəzərə alınaraq, "Qırmızı kitab"ın redaksiya heyəti tərəfindən III nəşr üzrə 2019-2023-cü illəri əhatə edən iş proqramı hazırlanaraq AMEA Rəyasət Heyətinin 14 fevral 2020-ci il tarixli qərarı ilə təsdiq edilmişdir. Proqramın əsas fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

"Azərbaycan Respublikasının "Qırmızı kitab"ı haqqında Əsasnamə"yə uyğun olaraq, 16 oktyabr 2020-ci il tarixdə Azərbaycan Milli Elmlər Akademiyası ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında III nəşrlə bağlı əməkdaşlıq və iş bölgüsü üzrə müqavilə bağlanmışdır.

Azərbaycan Respublikası "Qırmızı kitab"ının III nəşrinə daxil edilməsi planlaşdırılan növlərin IUCN-in "Qırmızı siyahı"sının kateqoriya və meyarlarına görə qiymətləndirilməsi ilə bağlı mütəxəssislərin beynəlxalq təcrübə ilə yaxından tanışlığına və daha dərin bilgilərə yiyələnməsinə ehtiyac olduğunu nəzərə alaraq, ötən dövr ərzində müvafiq seminarlar və təlim kursları da keçirilmişdir.

Azərbaycan Respublikası "Qırmızı kitab"ının II nəşrində Ermənistan tərəfindən 30 ilə qədər müddətdə işğal altında saxlanılmış ərazilərimiz kifayət qədər əks olunmamışdı. Çünki regionda hər hansı tədqiqat işi aparmaq, monitorinqlər həyata keçirmək, nadir və itmək təhlükəsində olan növlərin real vəziyyətini müəyyənləşdirmək mümkün deyildi. Azərbaycan Respublikasının "Qırmızı kitab"ına və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahı"sına daxil edilmiş nadir təbiət inciləri məhvə məruz qoyulmuş, dərman bitkiləri toplanaraq, qiymətli dendroflora nümunələri ("Qırmızı kitab"a salınmış Şərq çinarları da daxil olmaqla) kəsilərək daşınıb aparılmışdır. 43 min hektar sahəyə malik xüsusi mühafizə olunan təbiət ərazilərinin - Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarının, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş flora və fauna müxtəlifliyinin taleyi sual altındadır.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında və Azərbaycan əsgərinin şücaəti sayəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə regionun III nəşr üzrə tədqiqatlara cəlb edilməsi mümkün olmuşdur.

Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları ilə bağlı 2021-2022-ci illərdə AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin təşkilatçılığı ilə böyük uğurla keçirilmiş konfransların əsas mövzularından biri də məhz Qarabağ regionunun "Qırmızı siyahı"ları, nadir və itmək təhlükəsində olan növləri ilə bağlı olmuşdur.

Ədəbiyyat məlumatlarına görə, Azərbaycan Respublikasının "Qırmızı kitab"ının ilk iki nəşrinə daxil edilmiş 266 nadir və nəsli kəsilməkdə olan ali bitki növlərinin əksəriyyətinə, o cümlədən Şuşa gəvəni, Şuşa xaşası, xarıbülbül adı ilə məşhur olan qaş səhləbi, itburnu cinslərinin bir sıra növlərinə Şuşa və Şuşa ətrafı ərazilərdə rast gəlinir.

İşğaldan azad edilmiş ərazilərdə "Qırmızı kitab"a düşən flora və fauna nümunələri ilə bağlı aparılmış ekspedisiya tədqiqatlarında alimlərimiz heç bir fədakarlıqdan çəkinməmişlər. Azərbaycanın tanınmış botanik alimi, Dendrologiya İnstitutunun mərhum baş direktoru, "Qırmızı kitab"la bağlı Xızı rayonuna səfər zamanı faciəli şəkildə həyatını itirmiş AMEA-nın müxbir üzvü Tofiq Məmmədov regiona bir neçə dəfə səfər etmiş, "Qırmızı kitab"a daxil edilmiş dendroflora növləri ilə bağlı monitorinqlər aparmışdı.

"Qırmızı siyahı" növlərinin monitorinqləri Azərbaycanın tam nəzarətində olan və minalardan təmizlənmiş ərazilərdə aparılmışdır. Təəssüflər olsun ki, Rusiya sülhməramlılarının nəzarət etdiyi ərazilərdə tədqiqat işlərini həyata keçirmək, real vəziyyətlə yerində tanış olaraq qiymətləndirmə aparmaq hələ də mümkün deyildir. Lakin əminik ki, tezliklə həmin ərazilərə də elmin qayıdışına real şərait yaranacaq, yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "Qırmızı kitab"ının hazırlanması planları da reallaşdırılacaqdır.

Hazırda "Qırmızı kitab"ın III nəşrinin hazırlanması ilə bağlı elmi tədqiqatlar, xarakterik şəkil və yayılma xəritələri ilə birgə oçerklərin yazılması başa çatdırılmış, son redaktə və tərtibatla bağlı yaradıcı kollektivin üzərinə düşən işlər də yekunlaşmaq üzrədir.

***İradə HÜSEYNOVA,***
***akademik***

# IFC ilə Xəzər dənizində külək enerjisindən istifadə potensialı təhlil olunub

Energetika naziri Pərviz Şahbazov Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Avropa regionu üzrə direktoru Rana Karadşehin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə IFC ilə enerji sahəsində həyata keçirilən birgə layihələr qarşılıqlı münasibətlərin uğurlu inkişafının nümunəsi kimi qeyd edilib. Ölkəmizin iqtisadi inkişafında enerji sektorunun rolundan bəhs edilib, ənənəvi energetika və "yaşıl enerji" sahələrində görülən işlər, həyata keçirilən layihələr və gələcək planlar barədə məlumat verilib. Enerji sahəsinə özəl sektorun cəlbinin sürətləndirilməsi və IFC ilə bu istiqamətdə əməkdaşlığın inkişafı perspektivləri müzakirə olunub.

IFC-nin dəstəyi ilə hazırlanmış "Dənizdə külək enerjisi üzrə yol xəritəsi"ndən bəhs edilib, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində külək enerjisindən istifadə potensialının təhlili, bununla əlaqədar texniki, iqtisadi, o cümlədən ixrac məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. IFC-nin Azərbaycanda dənizdə külək enerjisi layihələrinin həyata keçirilməsində maraqlı olduğu, həmçinin digər bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə cəlb edilməsinin mümkünlüyü vurğulanıb.

Söhbət zamanı Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş, enerji keçidi, hidrogen enerjisi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin nümayəndə heyətinin Türkiyəyə səfəri başa çatıb

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) rəisi general-leytenant İlqar Musayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına səfəri yanvarın 27-də başa çatıb.



XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nümayəndə heyəti Ankarada Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib.

Sonra Türkiyənin Sənaye və Texnologiya Nazirliyində, İnformasiya və Kommunikasiya İdarəsində (BTK), Türkiyə Elmi-Texnoloji Tədqiqatlar Şurasında və Prezident Administrasiyasının Rəqəmsal Transformasiya Ofisində görüşlər keçirilib.

Görüşlərdə Türkiyədə informasiya-kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi sahəsində həyata keçirilmiş layihələr, qazanılmış elmi-texnoloji nailiyyətlər barədə ətraflı məlumat verilib, iki ölkə arasında əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Xidmət rəisi İlqar Musayev görüşlərdə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin fəaliyyət istiqamətləri və gördüyü işlər barədə məlumat verib.

# Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin saytları "gov.az" zonasına köçürülüb

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin elektron informasiya resursları yeni "nagro.gov.az" və "ndim.gov.az" domen adları ilə "AzStateNet" şəbəkəsinə köçürülüb.

Bu barədə AZƏRTAC-a Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən məlumat verilib. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının internet səhifələrinin "gov.az" zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirləri davam etdirir.

# "Azərlotereya" ASC ilə UNEC arasında memorandum imzalandı





Yanvarın 25-də Azərbaycanın qanuni lotereya təşkilatçısı və idman mərc oyunları operatoru "Azərlotereya" ASC ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əməkdaşlıq memorandumunun imzalanması mərasimi keçirilib.

UNEC-də təşkil olunan tədbirdə rektor professor Ədalət Muradov, "Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Zafer Reisoğlu, universitetin müvafiq struktur rəhbərləri və "Azərlotereya"nın nümayəndələri iştirak ediblər.

UNEC-in rektoru professor Ədalət Muradov qeyri-neft sektoru üzrə ölkə iqtisadiyyatı üçün önəmli yer tutan "Azərlotereya" ilə əməkdaşlığın hər iki tərəf üçün uğurlu olacağından, bu əməkdaşlığın ölkəyə, eyni zamanda türk dünyasına mühüm töhfələr qazandıracağından əminliyini ifadə edib. UNEC-in real sektorla əməkdaşlığa xüsusi önəm verdiyini diqqətə çatdıran rektor tələbələrin real iş dünyası ilə daha yaxından tanış olması, karyera imkanlarının artırılması, eləcə də müəllimlərin praktiki bacarıqlarının təkmilləşdirilməsi baxımından əməkdaşlığın əhəmiyyətli olduğunu vurğulayıb.

"Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Zafer Reisoğlu çıxışında birgə fəaliyyətin ölkəmizdə biznes mühitinin inkişaf etdirilməsində həlledici rol oynayan ixtisaslı kadrların hazırlanması və uğurlu idarəetmə metodologiyalarının elmi və praktiki əsaslarının araşdırılması üçün əlverişli imkanlar yaratması baxımından böyük əhəmiyyət daşıdığını vurğulayıb: "Azərlotereya" olaraq korporativ sosial məsuliyyət layihələrimizdə təhsil istiqamətinə xüsusi yer ayırırıq. Bu baxımdan UNEC ilə əməkdaşlığımızın bizim üçün önəmi böyükdür. Biz "Azərlotereya" olaraq öz "know how" yanaşmamızın və idarəetmə metodologiyamızın elmi-metodiki əsaslarının araşdırılması və "case study"lərin formalaşması üçün bütün qaynaqlarımızı, platformalarımızı iqtisad universitetinin müəllim və tələbə heyətinə açacağıq. Bu əməkdaşlığın vacib nəticələrindən biri praktiki biznes həlli yollarının elmi yanaşmalarla birləşməsi olacaqdır".

Z.Reisoğlu "Azərlotereya"nın yüksəkixtisaslı işçi heyəti, eləcə də Avropanın və dünyanın öndə gələn şans oyunları tədarükçüsü olan partnyoru "Scientific Games" şirkətinin ekspertlərinin şans oyunları və rəqəmsal texnologiyalar bazarının qiymətli məlumatları və imkanlarından təcrübə mübadiləsi çərçivəsində UNEC-in müəllim və tələbə heyətinin də yararlana biləcəyini qeyd edib.

Çıxışlardan sonra "Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Zafer Reisoğlu ilə UNEC-in rektoru professor Ədalət Muradov əməkdaşlıq memorandumunu imzalayıblar.

Sənədə əsasən, tərəflər arasında birgə layihələrin reallaşdırılması, tələbələrə təcrübə keçmək imkanının yaradılması, "Azərlotereya"nın əməkdaşları üçün peşə hazırlığı, müəllimlərin praktiki biliklərinin artırılması məqsədilə təlimlərin təşkili və digər sahələrdə əməkdaşlıq edilməsi nəzərdə tutulub.

*Səbuhi BAYRAMOV,*
*"Azərbaycan"*





# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Şirvan şəhərində həmin şəhərin və Hacıqabul rayonunun sakinlərini qəbul edib.

Qəbul zamanı müraciət edənlər arasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub. Onların sosial vəziyyətləri öyrənilib, müraciətləri ilə əlaqədar müvafiq sosial dəstək tədbirlərinin görülməsi təmin edilib. Həmçinin digər vətəndaşların müraciətləri fərdi qaydada araşdırılaraq nəticəsinə əsasən tədbirlər görülüb. Müraciətlər əsasən pensiya və ünvanlı sosial yardım, müavinət, əlillik, reabilitasiya xidmətlərinə, özünüməşğulluq və digər aktiv məşğulluq proqramlarına cəlbedilmə, mənzillə təminat və s. məsələlərlə bağlı olub.

Vətəndaşların müraciətləri nəzərə alınaraq onların aktiv məşğulluq proqramlarına (özünüməşğulluq, ictimai işlər, peşə hazırlığı), sosial və reabilitasiya xidmətlərinə, sosial dəstək tədbirlərinə cəlb olunmaları üçün qeydiyyatı aparılıb.

Bir sıra müraciətlər sorğu xarakterli olub və bununla bağlı vətəndaşlara müvafiq mövzularda ətraflı izahat verilib.

# Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Qanun) 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 25 yanvar 2023-cü il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 15 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə dair verilmiş lisenziyalar ləğv edilmişdir.

Bundan əlavə, İdarə Heyətinin eyni tarixli qərarı ilə lisenziya sahiblərinin lisenziyalarının qüvvəsinin dayandırılmasına əsas vermiş halları müəyyən edilmiş müddətdə aradan qaldırmadığını nəzərə alaraq Qanunun 107.1.2-ci maddəsinə müvafiq olaraq siyahıda göstərilən (siyahı əlavə olunur) 4 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə dair verilmiş lisenziyalar ləğv edilmişdir.

## "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların siyahısı

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Abdullazadə Şəms Azər qızı | 10.10.2022 | SA-0252 | 1307843932 |
| 2 | Allahverdiyev Əfsər Aydın oğlu | 29.12.2020 | SA-0198 | 1003498832 |
| 3 | Atayeva Ləman Ramiz qızı | 29.12.2020 | SA-0200 | 1503432262 |
| 4 | Cahangirbəyli Ərtoğrul Ramin oğlu | 23.04.2014 | 080569 | 1701521302 |
| 5 | Əmircanova Şahsənəm Cəlil qızı | 29.12.2009 | 000299 | 2001546462 |
| 6 | Həsənova Şəfəq Oqtay qızı | 16.11.2009 | 000280 | 1302021612 |
| 7 | Həsənova Tamilla Güloğlan qızı | 29.12.2020 | SA-0202 | 1503891682 |
| 8 | Hüseynov Elçin Müzəffər oğlu | 07.08.2012 | 000718 | 7300419312 |
| 9 | Hüseynov Orxan Elşad oğlu | 29.12.2020 | SA-0209 | 1404293992 |
| 10 | Qasımov Oleq Nəriman oğlu | 29.12.2020 | SA-0208 | 1304801772 |
| 11 | Miriyev Bəxtiyar Mirəhməd oğlu | 17.12.2020 | SA-0188 | 2004334282 |
| 12 | Mustafayeva Ayla Elman qızı | 21.07.2009 | 000218 | 1401566232 |
| 13 | Rəhimli Orxan Məmmədrahim oğlu | 13.11.2010 | 000383 | 3000520722 |
| 14 | Rüstəmov Rövşən Çingiz oğlu | 08.05.2012 | 000641 | 1801627562 |
| 15 | Rzayev Orxan Faid oğlu | 28.04.2009 | 000102 | 1301124202 |

## "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.2-ci maddəsinə əsasən lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin siyahısı

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Bayramov Sərxan Sərdar oğlu | 13.04.2010 | 000334 | 1701084592 |
| 2 | Hüseynov Novruz Salman oğlu | 15.01.2013 | 000839 | 6300225322 |
| 3 | Məmmədov Nicat Mirhüseyn oğlu | 21.09.2015 | 080721 | 2601599752 |
| 4 | Səfərova Tahirə Şəmil qızı | 07.05.2009 | 000192 | 2700440892 |


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərə polad burazlar, birləşdirici bəndlər və propilen kəndirlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 03 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***


# "Azərişıq" ASC obyektlərdə və evlərdə elektrik enerjisinin talanması hallarını aşkarlayıb

"Azərişıq" ASC elektrik enerjisi itkilərinin azaldılması yönündə yenilənmə işlərini davam etdirir. Bu yenilənmələr xüsusilə innovativ texnologiyalar əsasında həyata keçirilir. Bunlarla yanaşı, abonentlərlə mütəmadi olaraq maarifləndirici söhbətlər də aparılır.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, görülən bütün tədbirlərə baxmayaraq, təəssüf ki, elektrik enerjisinin talanması hallarının qarşısını tam almaq mümkün olmayıb. Sayğaclara aylıq baxış zamanı həm əhali, həm də qeyri-əhali abonent qrupları arasında elektrik enerjisindən qanunsuz istifadəyə rast gəlinir.

Belə hallardan biri Xırdalan şəhərində yerləşən "Mormor" restoranında ortaya çıxıb. Belə ki, sayğaca müdaxilə olunaraq uzaqdan idarə olunan xüsusi qurğu quraşdırılıb. Qurğudan istifadə etməklə növbəti kənar müdaxilə Göyçay rayonunda avtoservis kimi fəaliyyət göstərən obyektlərdən birində aşkarlanıb. Məlum olub ki, abonent sayğacını xüsusi qurğu vasitəsilə dayandırıb.

Suraxanıda ərzaq mağazasında da sayğac uzaqdan idarə olunan xüsusi qurğu ilə dayandırılıb. Üstəlik, bu səbəbdən yanğın baş verib və sayğac tamamilə yararsız vəziyyətə düşüb.

Xətai rayonunda fəaliyyət göstərən ət dükanına baxış keçirilən zaman növbəti qanunsuzluq aşkarlanıb. Obyektə elektrik sayğacından kənar xətt daxil olduğu məlum olub.

Əhali abonentləri arasında da analoji hallara rast gəlinib. Astara rayonunda evlərin birində elektrik sayğacı xüsusi "maqnit" vasitəsilə dövrədən kənarlaşdırılıb.

Eyni üsulla Sabirabad rayonunda, paytaxtda isə Goradil kəndində yerləşən evlərdə də sayğaca kənar müdaxilə edilib.

Digər neqativ hal Xətai rayonunda aşkarlanıb. Fərdi yaşayış evinin sayğacına baxış keçirilən zaman məlum olub ki, elektrik sayğacından kənar xətt daxil olur.

Buzovna qəsəbəsində də evlərin birində sayğaca qanunsuz müdaxilə olduğu ortaya çıxıb. Sayğacın giriş-çıxış xətti eyni yuvaya birləşdirilərək dövrədən kənarlaşdırılıb. "Azərişıq" ASC tərəfindən son illərdə istismara verilən sayğacların müasir və rəqəmsal olduğunu nəzərə alsaq, bütün müdaxilə hallarını sayğac öz yaddaş blokunda saxlayır. Laboratoriya şəraitində sayğaclara proqram əlavəsi tətbiq olunaraq həmin müdaxilə halları detallı şəkildə öz təsdiqini tapır.

"Azərişıq" ASC bildirib ki, qeyd edilən faktlarla bağlı qanunamüvafiq tədbirlər görülüb və bu, ardıcıl olaraq davam etdiriləcək. Həmçinin bu cür qanunsuzluğa yol verən obyekt və müəssisələrin, şəxslərin adları kütləvi informasiya vasitələrində ictimaiyyətə təqdim olunacaq.








**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Toğrul Musayevə bacısı

**TAMİLLA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **4975**
Sifariş **189**

Qiyməti 40 qəpik